## Fazil Mustafa xəstəxanadan evə buraxılıb

Millət vəkili müalicəsini ev şəraitində davam etdirəcək



**Martın 28-də terror hücumuna məruz qalan Böyük Quruluş Partiyasının sədri, Milli Məclisin deputatı Fazil Mustafa müalicə aldığı xəstəxanadan evə buraxılıb.**

Bu barədə deputatın köməkçisi Əjdər Əliyev məlumat verib.

O bildirib ki, F.Mustafa müalicəsini ev şəraitində davam etdirəcək. "Qardaşımı artıq evə gətirdik. Özünü yaxşı hiss edir".

Bu sözləri isə Fazil Mustafanın qardaşı İlqar Mustafayev deyib.

O bildirib ki, müayinələr üçün xəstəxanaya gedib-gələcəyik: "Qardaşımın vəziyyəti yaxşıdır. Evdə həkim nəzarəti yoxdur. Hər şey qaydasındadır".

(səh.5)

## Bu il 46 nəfər ölkəyə readmissiya olunub



**Azərbaycan Respublikası tərəfindən imzalanmış readmissiya sazişləri çərçivəsində 2023-cü ilin I rübü ərzində 46 şəxsin ölkəyə readmissiyası həyata keçirilib.**

Bu barədə APA-nın sorğusuna cavab olaraq Dövlət Miqrasiya Xidmətindən məlumat verilib.

Bildirilib ki, onlar əsasən Almaniya, Avstriya, İsveç və s. ölkələrdən readmissiya edilmiş şəxslərdir.

№ 62 (5823) 2023-cü il

ŞƏRQ

Günəş Şərqdən doğur!

Qiyməti 40 qəpik

www.sherg.az 12 aprel 2023-cü il (çərşənbə)



# Bakı şəhərində çox ciddi sıxlıq var

Metrostansiyaların sayını 100-ə çatdırmaq lazımdır

**"Hörmətli həmkarımız Fazil Mustafaya qarşı terror aksiyası təşkil edən, xarici dövlətlərlə, xüsusilə də İran xüsusi xidmət orqanları ilə işbirliyində olan cinayətkar dəstənin üzvləri ifşa olundu. Daxili İşlər Nazirliyinin əməkdaşları yüksək peşəkarlıqla bu cinayətin üstünü qısa müddətdə açdılar".**

Bunu millət vəkili Qüdrət Həsənquliyev deyib.

Deputat bildirib ki, Bakı şəhərində təhlükəsizlik kameraların sayının artırılmasına çox ciddi ehtiyac var. Parlament üzvü rəqəmlərə istinad edərək bildirib ki, 9 milyon insanın yaşadığı Londonda 442 min 562 təhlükəsizlik kameraları quraşdırılıb.

(səh.5)



## Qiymətlərə yaxın düşmək olmur

Bəzi reseptlərdə dərmanların qiyməti 400 manata yaxındır

**Parlamentdə dərmanlarla bağlı problemlər qaldırılıb. Çıxış edən deputatların əksəriyyəti dərmanların qiymətləri və çatışmazlığı ilə bağlı şikayətlərini dilə gətiriblər.**

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov bildirib ki, təkcə dərmanların qiyməti yox, eləcə də keyfiyyəti, əlçatanlığı və bu sahədə olan digər problemlərlə bağlı Səhiyyə Nazirliyi və hökumət birlikdə sənəd üzərində iş aparır.

(səh.4)

## İran regionda ən böyük təhlükədir

Azərbaycanlı general ABŞ hərbi rəhbərliyi ilə məsləhətləşmə aparır



**Azərbaycan Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin Komandanı, general-leytenant Ramiz Tahirov Amerika Birləşmiş Ştatlarına (ABŞ) səfər edib.**

Səfər çərçivəsində general-leytenant R.Tahirov ABŞ Hərbi Hava Qüvvələrinin komandanı ordu generalı Çarlz Braun ilə görüşüb.

Tərəflər hərbi əməkdaşlığın cari vəziyyəti və regional təhlükəsizlik məsələlərinə dair ətraflı fikir mübadiləsi aparıblar.

(səh.4)

# Laçında gərgin döyüşlər

Ermənistan tərəfi xeyli sayda itki verib, düşmənin təxribatı nəticəsində üç hərbi qulluqçumuz şəhid olub









**Aprelin 11-i saat 16:20 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonu istiqamətindəki üzbəüz mövqelərini müxtəlif çaplı silahlardan istifadə etməklə atəşə tutub.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, daha sonra qarşı tərəf minaatan və iriçaplı silahlardan da istifadə etməklə mövqelərimizi atəşə tutmaqda davam edib.

Hərbi qulluqçularımızın sayıqlığı nəticəsində Ermənistan tərəfinin təxribatının qarşısı qətiyyətlə alınıb, atəş mövqeləri susdurulub.

Ordumuz tərəfindən görülən cavab tədbirləri zamanı Ermənistan silahlı qüvvələrinin bölmələri xeyli sayda itki verib.

Hazırda qeyd olunan istiqamətdə nisbi sakitlikdir, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

Ermənistan tərəfinin təxribatının qarşısını alarkən Azərbaycan Ordusunun hərbi qulluqçuları Zalov Vidadi Nizami oğlu, Həsənov Elşad Qabil oğlu və Tağıyev Səbuhi Gündüz oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhid hərbi qulluqçularımızın yaxınlarına dərin hüznlə başsağlığı verir.

"Kaliber"in məlumatına görə, Ermənistan Silahlı Qüvvələri Azərbaycana qarşı planlaşdırılmış təxribatı həyata keçirib: "Bu, təsadüfi deyil, təcrübədən əmin olmuşuq ki, bu, hər dəfə təkrarlanmış əməliyyatdır.

(səh.3)

# İran mediası Bakını təhdid edir





İbrahim Nəbioğlu: "İranın dərdi Azərbaycanla deyil, onun yuxusunu ərşə çıxaran Turanın ayaq səsləridir"

***Rauf Arifoğlu: "İran hakimiyyətinin Azərbaycana dil uzatması onun durumunu daha da mürəkkəbləşdirir, iflasını sürətləndirir"***


TEHRAN TIMES

Baku Should Heed the Ukraine Lesson

Pharaoh of Israel is under pressure from inside and outside

(səh.3)



## "Mən də müxalifətəm və burada oturmuşam"

Sabir Rüstəmxanlı həmkarlarının ölkə müxalifətini ümumi tənqid etməsinə narazılığını bildirib

(səh.3)



## "Adətən biz ütülü, sığallı tədbirlərə meyl edirik"

Varis Yolçuyev: "Bütün mədəni həyat Bakıda cəmləşib. Elə bölgələrimiz var, ədəbiyyatsevərlər həsrətlə gözləyir ki, biz yazıçı, şair ora qonaq gəlsin"

(səh.6)

## Məktəbəhazırlıq üzrə yerdəyişmə dayandırılır



**Aprelin 15-i saat 17:00-da ümumi təhsil müəssisələrində fəaliyyət göstərən məktəbəhazırlıq qruplarında təhsil alan uşaqların yerdəyişməsi prosesi dayandırılacaq.**

Bu barədə Elm və Təhsil Nazirliyindən məlumat verilib.

Uşaqların yerdəyişməsi prosesi www.sy.edu.az portalı vasitəsilə həyata keçirilir.

*Qeyd edək ki, şagird yerdəyişməsinin elektronlaşdırılması bu prosesdə məktəb və valideyn arasında olan məsafənin azaldılmasına və valideynin təhsil müəssisəsi ilə təmasının daha şəffaf şəkildə təşkilinə xidmət edir.*

## Ukrayna ordusuna yeni tank və artilleriya mərmiləri çatdırılıb



**"Ukroboronprom" dövlət konserni ordunun ehtiyacları üçün 125 mm-lik tank mərmiləri və 122 mm-lik artilleriya döyüş sursatlarının yeni partiyalarını göndərib.**

"Göndərilmiş 125 mm-lik tank mərmilərinin partiyasından sonra 122 mm-lik artilleriya mərmilərinin daha bir partiyası orduya təhvil verilib", - deyə məlumatda deyilir.

Hər iki mərmi növü Ukrayna tərəfindən NATO ölkələri ilə birgə xarici obyektlərdə, lakin Ukrayna texnologiyasına uyğun və yerli mütəxəssislərin cəlb edilməsi ilə istehsal olunur.

# Vaşinqtonda İlham Əliyevlə Paşinyanın görüşü mümkündür

## ABŞ və Qərb yekun sülh sazişinin imzalanmasında maraqlıdır




### *Bunun mümkün qədər tez bir zamanda baş verməsinə cəhd göstərirlər*

**Ermənistan mətbuatı yenidən Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan Baş naziri Nikol Paşinyan arasında növbəti görüşün olacağını yazır. ”Past” nəşri yazıb ki, mayın ikinci yarısında baş tutmalı olan növbəti görüş böyük ehtimalla Vaşinqtonda keçiriləcək.**

Qeyd olunub ki, Vaşinqton platformasında danışıqların gələcəyi ilə bağlı tərəflərin yanaşmaları üst-üstə düşür. Görüşün təşəbbüskarı isə öz hərəkətlərində və problemə yanaşmalarında nəzərəçarpacaq dərəcədə fəal olan ABŞ-nin Dövlət katibi Entoni Blinkendir. Nəşr vurğulayıb ki, Avropa dairələri də görüş üçün fəallıq göstərir: ”Avropa Şurasının rəhbəri Şarl Mişel bu yaxınlarda Paşinyan və Əliyevlə iki ölkə arasındakı münasibətlər və danışıqlar prosesinin vəziyyəti ilə bağlı bir neçə telefon danışığı aparıb. Avropalılar qarşıdan gələn görüşün onların himayəsi altında - yaxın həftələrdə Brüsseldə keçirilməsi üçün əllərindən gələni edirlər”.

**Politoloq Elçin Xalidbəyli ”Şərq”ə açıqlamasında bəyan edib ki, Ermənistan son vaxtlara qədər sülh prosesindən mümkün qədər uzaqlaşmağa çalışırdı. Hətta rəsmi İrəvan müxtəlif bəhanələrlə yüksək səviyyəli görüşlərdən yayınırdı. Bununla da Cənubi Qafqazda sülh prosesini müvəqqəti də olsa, bloklayaraq, vaxt qazanmağa cəhd göstərirdi. Ekspertin sözlərinə görə, rəsmi İrəvanın ümidləri özünü doğrultmadı:** ”Ermənistan bu müddət ərzində vaxt qazanmaq əvəzinə vaxt itirmiş oldu. Cənubi Qafqazda geopolitik proseslər Ermənistanın əleyhinə yönəlmiş oldu. Azərbaycan ordusu əlavə hərbi-strateji üstünlüklər qazandı. Ona görə də indi sülh danışıqları Azərbaycandan daha çox məhz Ermənistana lazımdır. Rəsmi Bakı öz hədəflərini Azərbaycan Ordusunu hərəkətə gətirməklə, davamlı olaraq reallaşdırır. Ermənistan isə buna hər hansı formada cavab verə bilmir. Üstəlik, ABŞ və Qərb də Ermənistana rəsmi İrəvanın umduğu səviyyədə dəstək verməyə qətiyyən həvəs göstərmir. Yəni indi Ermənistanın sülh danışıqları masasına qayıtmaqdan başqa çıxış yolu qalmayıb. Digər tərəfdən, ABŞ və Qərb Cənubi Qafqazdan Rusiyanın sıxışdırılıb, çıxarılması prosesini sürətləndirməyə çalışır. Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması bu prosesdə həlledici faktor rolunu oynayır. Ona görə də indi məhz ABŞ Azərbaycan və Ermənistan arasında yüksəksəviyyəli görüşlərin keçirilməsində birbaşa maraqlıdır. Üstəlik, ABŞ bu görüşlərdən mütləq pozitiv nəticələr almaq niyyətində olduğunu sezdirir. Yəni hazırda ABŞ Cənubi Qafqazdakı sülh prosesində təşəbbüsü Rusiyanın əlindən alıb.

Bütün bunları nəzərə aldıqda, gələn ay Vaşinqtonda Azərbaycan və Ermənistan arasında yüksəksəviyyəli görüşün keçirilmə ehtimalı kifayət qədər inandırıcı görünür. Həmin görüşlərin pozitiv nəticələr verə biləcəyi də qətiyyən istisna deyil. Bu baxımdan, hesab etmək olar ki, ABŞ və Qərb Rusiyanı Cənubi Qafqazdakı geopolitik proseslərdən, xüsusilə də, Azərbaycan-Ermənistan sülh danışıqlarında vasitəçilikdən kənarlaşdırmağa çalışır. ABŞ və Qərb Azərbaycan-Ermənistan yekun sülh sazişinin imzalanmasında maraqlıdır, bunun mümkün qədər tez bir zamanda baş verməsinə cəhd göstərir”.

*Analitik vurğulayıb ki, ən əsası Rusiyadan fərqli olaraq, ABŞ və Qərb Azərbaycan-Ermənistan yekun sülh sazişinin beynəlxalq hüquq normaları çərçivəsində reallaşmasına üstünlük verir:* ”Bu, Azərbaycanın maraqlarına tamamilə cavab verir. Rəsmi İrəvan isə bundan məyusdur, ona görə də son vaxtlar yenidən Rusiyaya yaxınlaşmaq istiqamətində müəyyən manevrlər etməyə çalışır. Ancaq istənilən halda, Ermənistan ABŞ və Qərbin vasitəçilik etdiyi sülh prosesini pozmağa cəsarət etməz, buna yönəlik cəhdlərin hansı ağır nəticələri doğura biləcəyini də anlayır. Ona görə də Ermənistanın sülh prosesinə qarşı müqavimətinin yaxın vaxtlarda tamamilə qırılacağı qətiyyən şübhə doğurmur”.

**İsmayıl Qocayev**

# YAŞAT Fondunda vəsait çatışmır

## Qənirə Paşayeva deputatları əməkhaqlarının bir hissəsini Fonda köçürməyə çağırıb

**Dünən Milli Məclisin növbəti plenar iclası keçirilib. İclasın gündəliyində 11 məsələ olub. Öncə deputatlar cari məsələlərlə bağlı çıxışlar ediblər. Deputat Tural Gəncəliyev bildirib ki, Azərbaycanın 44 gündə əldə etdiyi qələbəni nəzərə alaraq görürük ki, ölkənin uğurlarını qəbul etməyən qüvvələr var. Onun sözlərinə görə, beynəlxalq təşkilatlarda da Azərbaycana qarşı təhdidlər müşahidə edilir:**

”Bu məqamda Türk Dövlətləri Təşkilatı ilə əlaqələrə xüsusi diqqət yetirməliyik. Cənab Prezidentin Türk dövlətlərinə səfərləri bir daha göstərir ki, Azərbaycanın din və dil qardaşları ilə daha sıx əməkdaşlıq etməliyik. Türk dövlətləri ilə təkcə humanitar, iqtisadi, mədəni sahədə deyil, müdafiə və təhlükəsizlik məsələsində əməkdaşlıq etməliyik. Dünyada bununla bağlı müxtəlif praktikalar var, elə Avropa Birliyini nümunə olaraq göstərə bilərik. Ona görə də Türk dövlətləri arasında inteqrasiyanı daha dərindən etməliyik”.




### "Azərbaycanda vətəndaş nikahından dünyaya gələn uşaqlar var"

**Milli Məclisdə vətəndaş nikahlarından dünyaya gələn uşaqların problemləri qaldırılıb. Deputat Fəzail Ağamalı bildirib ki, Azərbaycanda vətəndaş nikahından dünyaya gələn çoxlu sayda uşaq var:** ”Bu uşaqlarla bağlı məsələlər qanunvericilikdə əksini tapmayıb. Onların statusu, sağlamlıqların qorunması kimi məsələlərin qanunvericilikdə əksini tapmasına ehtiyac var”. Deputat Müşfiq Məmmədli isə nikah zamanı narkoloji müayinə aparılmasını təklif edib: ”Nikah zamanı İİV və digər müayinələr tələb olunur. Narkomaniyanın geniş yayıldığı belə bir vaxtda narkoloji testin də bu sıraya daxil edilməsi vacibdir”.

### "Onların telefonuna da cavab verə bilmirəm"

**Deputat Razi Nurullayev deyib ki, YAŞAT Fonduna müraciətlər çox olduğuna görə kütləvi imtinalar edilir ki, bu da haqlı narazılıq yaradır. Onun sözlərinə görə, səbəb YAŞAT Fondunda vəsaitlərin çox az olmasıdır:** ”Amma hələ də həm İkinci, həm də Birinci Qarabağ müharibəsindən minlərlə müalicə istəyənlər var. Hər gün qapımızı onlarla qazi və onların valideynləri döyür”. Deputat təklif edib ki, Dövlət Neft Fondundan hər il birdəfəlik vəsait YAŞAT Fonduna köçürülsün: ”İmkanlı şəxslərə də müraciət edirəm ki, YAŞAT Fonduna vəsait köçürməkdə davam etsinlər. Bununla bərabər, yüzlərlə müharibə iştirakçısı müalicəsini davam etdirmək üçün, əlillik almaq üçün çalışır. Onlar nə tam sağlamdır, nə də əllilik təyinatı üçün tam xəstə. Belə olan halda, bizlər, dövlət qurumları da çətin suallarla üz-üzə qalırıq, müharibə iştirakçısı da qapıları döyməkdə və sosial şəbəkələrdə görünməkdə davam edir. Qınamaq da olmur. Onların iş yerləri ilə təminatında çox ciddi problemlər mövcuddur. Onda sual olunur ki, onlar necə dolansın və dərmanlarını hansı vəsaitlə alsın?Təklif edirəm ki, bu cür şəxslərin siyahısı müəyyən edilsin və onlara 3 il müddətinə 600-800 manat arası vəsait ödənilsin. Doğrudan da taleyin ümidinə atılmış xeyli müharibə iştirakçısı var. Normal ali və peşə təhsili yoxdur ki, iş bazarında axtarışa çıxsın, valideynləri varlı-hallı deyillər ki, övladlarının xərclərini ödəsin, tam da əlil deyillər ki, aylıq vəsait alsınlar. Onun üçün də həm biz, həm də aidiyyəti dövlət qurumu bu məsələni gözardına almasın. Təklif edirəm ki, bu məsələ ilə bağlı bir dinləmə keçirək. Vallah, onlar yazıqdır. Bəlkə, verilən təkliflər içərisində elə səmərəlisi olacaq ki, həm biz, həm də hökumət bəyənəcək. Mən şəxsən daha o şəxslərin telefonuna da cavab verə bilmirəm”.

### "İnanıram ki, deputat həmkarlarımız nümunə göstərəcək"

**Millət vəkili Qənirə Paşayeva da deputatları əməkhaqlarının bir hissəsini YAŞAT Fonduna köçürməyə çağırıb:** ”YAŞAT Fondunda vəsait çatışmır. Bu ay əməkhaqqımızın bir hissəsini YAŞAT Fonduna ödəyərək ictimaiyyətə, iş adamlarına müraciət edək ki, onlar da Fonda dəstək versinlər. İnanıram ki, deputat həmkarlarımız əməkhaqqının bir hissəsini YAŞAT Fonduna bağışlayaraq nümunə göstərəcək”. Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli isə YAŞAT Fonduna davamlı dəstək verildiyini bildirib: ”Belə problem yaranıbsa, YAŞAT Fondu ilə əlaqə saxlayarıq”.

### "Bu cür problemin televiziya kanalı vasitəsilə həlli..."

**Deputat Ceyhun Məmmədov bəyan edib ki, bu yaxınlarda sosial şəbəkələrdə bir yeniyetmənin uşaq evi ilə bağlı problemləri mətbuatda işıqlandırıldı. Amma dövlət qurumları bu məsələ ilə bağlı adekvat davranmadılar:** ”Sonda isə cəmiyyət gördü ki, problemi aidiyyəti dövlət qurumları yox, hansısa televiziya kanalının aparıcısı həll etdi. Müvafiq qurumlar belə məsələlərə qarşı həssas və diqqətli olmalıdır”.

Xatırladaq ki, bir neçə gün əvvəl Xətai rayonu, 3 saylı uşaq evinin yeniyetmə sakini Məhəmməd Hacıyev video paylaşaraq uşaq evinə gətirilən ərzaqların onlara verilmədiyini iddia edib. Daha sonra o, Səhiyyə Nazirliyinin 1 nömrəli Respublika Psixiatriya Xəstəxanasına yerləşdirilib. Aprelin 5-də isə yeniyetmə qardaşının ərizəsi əsasında onun himayəsində evə ambulator müalicəyə göndərilib.

### "Rusiya MN-in bülletenlərində ölkəmizdəki yer adları düzgün göstərilmir"

**Deputat Sahib Alıyev bildirib ki, Rusiya Müdafiə Nazirliyinin Qarabağla bağlı son dezinformasiya bülletenlərində ölkəmizdəki yer adları düzgün göstərilmir. Parlament üzvü vurğulayıb ki, hansısa ”Stepanakert”, ”Martuni” və s. ifadələrdən dəm vurulur:** ”Müdafiə Nazirliyimiz təsdiqləmədiyi halda guya ardıcıl olaraq ”atəşkəsin pozulması” xəbəri verilir. Bu, gələcəkdə Qarabağda qalmalarını hüquqi baxımından əsaslandırmaq üçün hazırlıqdan başqa bir şey deyil. Aprelin 5-də Laçın-Şuşa-Xankəndi yolunda məhz Rusiya hərbi kontingentinin günahı üzündən baş verən insident zamanı özünü pis hiss edən 3 sərnişinə ilk tibbi xidmət göstərib təcili yardım maşınlarımızda Xankəndiyə çatdırdıq. Təsdiqlədik ki, digər vətəndaşlarımız kimi ölkəmizdəki haydilliləri də heç bir təhlükə gözləmir. Əksinə, səbr və təmkinlə onlar reinteqrasiyaya, cəmiyyətimizin bir parçası olmağa dəvət edilir. Mümkündür ki, de-fakto proksi rolunda çıxış edən qanunsuz silahlı birləşmələrə müəyyən təxribatlar törətdirməklə bunun əksi sərgilənsin. Amma hansı ad altında olursa-olsun, gələcəkdə Qarabağda başqa dövlətin hərbi kontingentinin varlığına ehtiyac duyulmadığı indidən bəllidir. O da bəllidir ki, biz bəzi güclərin bütün cəhdlərinə rəğmən torpaqlarımızın hər qarışı üzərində suverenliyimizi tam təmin etmək əzmindəyik”.

**İsmayıl Qocayev**

# Azərbaycan lideri Monteneqronun yeni Prezidentinə təbrik ünvanlayıb

**Prezident İlham Əliyev Monteneqronun yeni seçilmiş Prezidenti Yakov Milatoviçə təbrik məktubu ünvanlayıb.**



*Məktubda deyilir:*

”Hörmətli cənab Milatoviç,

Monteneqronun Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan-Monteneqro dostluq və əməkdaşlıq əlaqələri xoş ənənələrə malikdir. İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq dövlətlərarası münasibətlərimizin daha da möhkəmləndirilməsi, əməkdaşlığımızın genişləndirilməsi istiqamətində birgə səylər göstərəcəyik.

Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, dost Monteneqro xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm”.

# Prezident Naxçıvandakı səlahiyyətli nümayəndəsinə müavin təyin edib

**Samir Əhməd oğlu Seyidəhmədli Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini təyin edilib.**

Bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

# İşğalçılıq niyyətlərindən əl çəkmirlər

## Ombudsman beynəlxalq ictimaiyyəti Ermənistanın əməllərini pisləməyə çağırıb

**Azərbaycan Ombudsmanı Səbinə Əliyeva beynəlxalq ictimaiyyəti Ermənistanın əməllərini pisləməyə çağırıb.**




Bu barədə Ombudsmanın Ermənistanın 11 aprel təxribatı ilə bağlı açıqlamasında deyilir.

Açıqlamada deyilir ki, regionda sülhün və əmin-amanlığın təmini üçün Ermənistanın hərbi təxribatlardan əl çəkməsi ilə bağlı dünya ictimaiyyətinə dəfələrlə çağırış və bəyanatlar ünvanlanmasına baxmayaraq bu təxribatların davam etdirilməsi Ermənistanın sülh prosesində maraqlı olmadığını, işğalçılıq niyyətlərindən əl çəkmədiyini bir daha sübut edir:

”Göründüyü kimi, Ermənistan beynəlxalq hüququn və beynəlxalq humanitar hüququn norma və prinsiplərini kobud şəkildə pozmaqla regionda sülh prosesinə maneə törətməkdədir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) olaraq bir daha dünya ictimaiyyətinə müraciət edərək Ermənistanın hərbi təxribatlarına son qoyulması və sülhün bərpası istiqamətində qəti mövqe nümayiş etməyə çağırırıq”.

*Qeyd edək ki, Müdafiə Nazirliyi tərəfindən verilmiş məlumata əsasən, 11 aprel tarixində Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonu istiqamətində yerləşən üzbəüz mövqelərini atıcı silahlardan intensiv atəşə tutub. Qarşı tərəfin törətdiyi təxribat nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçuları şəhid olub və yaralanıb.*

# Qarabağ məsələsi bitməyib...

## ”Türkiyə-Ermənistan sərhədi hələ bağlı qalmalıdır”

**Ermənistanın Türkiyədə səfirliyinin açılması yaxın vaxtlarda gündəmdə deyil, lakin ölkələr sərhəd-keçid məntəqələrinin açılması üzərində işləyirlər.**



Bu barədə bazar ertəsi Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ”A Haber” telekanalının efirində bildirib.

”Yaxın vaxtlarda Ermənistan səfirliyinin açılması baş tutmaya bilər, çünki ilk növbədə başqa addımlar atmaq lazımdır. Biz Ermənistan üçün hava məkanımızı açmışıq, yük uçuşları həyata keçirilir, qarşılıqlı hava əlaqəsi başlayıb. Ermənistan hava daşıyıcıları bizim məkan vasitəsilə üçüncü ölkələrə uça bilər. Amma yerüstü keçid məntəqələrinin açılması üçün siyasi şərtlərlə yanaşı, ilk növbədə yolları hazırlamaq, körpünü bərpa etmək lazımdır. Artıq körpünün tikintisi ilə bağlı razılaşmalarımız var”, - deyə nazir bəyan edib.

Çavuşoğlu qeyd edib ki, quru sərhəd keçidinin açılması ”diplomatik pasport sahibləri və ya üçüncü ölkələrin adi vətəndaşları” üçün nəzərdə tutulur.

**Məsələyə münasibət bildirən tanınmış jurnalist, siyasi şərhçi Fuad Abbasov ”Şərq”ə söyləyib ki, Mövlud Çavuşoğlu Türkiyənin xarici siyasətindən yola çıxaraq açıqlama verib:** ”Biz uzun illərdir ki, Türkiyə-Ermənistan sərhədinin bağlı olmasına səbəb kimi Qarabağ məsələsinin həll olunmamasının göstərildiyini bilirik. Bu gün də Qarabağ məsələsi tam həll edilməyib. Hətta Ermənistan İranı da Qarabağ probleminin iştirakçısı edərək, revanş arzulayır. Nəticədə də Azərbaycan Ermənistan və İranın iştirak etdiyi daha bir savaşa sürüklənir. Belə bir şəraitdə Türkiyənin Ermənistanla sərhədləri açma planları Azərbaycan ictimaiyyətində qəzəb yarada bilər. Həmçinin Türkiyədə seçkilər yaxınlaşır və bu ərəfədə belə açıqlamanın verilməsinin ölkədə narazılıqla qarşılanması mümkündür. Çünki Azərbaycan ictimaiyyəti Türkiyə ictimaiyyətinə ciddi təsir göstərir. Ermənistan-Türkiyə sərhədlərinin açılması və siyasətin normallaşdırılması, Azərbaycanla İran arasındakı gərginlik dönəminə təsadüf etdiyi üçün yaxşı fikir deyil. Türkiyə-Ermənistan sərhəddi Qarabağ məsələsi tam həll edilənə qədər bağlı qalmalıdır”.

**Nihat Müzəffər**

# Laçında gərgin döyüşlər

## Ermənistan tərəfi xeyli sayda itki verib, düşmənin təxribatı nəticəsində üç hərbi qulluqçumuz şəhid olub



***Ermənistanın təxribatları sülh sazişi üzrə danışıqlara ciddi çağırışlar fonunda baş verir***

**Aprelin 11-i saat 16:20 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonu istiqamətindəki üzbəüz mövqelərini müxtəlif çaplı silahlardan istifadə etməklə atəşə tutub.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, daha sonra qarşı tərəf minaatan və iriçaplı silahlardan da istifadə etməklə mövqelərimizi atəşə tutmaqda davam edib.

Hərbi qulluqçularımızın sayıqlığı nəticəsində Ermənistan tərəfinin təxribatının qarşısı qətiyyətlə alınıb, atəş mövqeləri susdurulub.

Ordumuz tərəfindən görülən cavab tədbirləri zamanı Ermənistan silahlı qüvvələrinin bölmələri xeyli sayda itki verib.

Hazırda qeyd olunan istiqamətdə nisbi sakitlikdir, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

Ermənistan tərəfinin təxribatının qarşısını alarkən Azərbaycan Ordusunun hərbi qulluqçuları Zalov Vidadi Nizami oğlu, Həsənov Elşad Qabil oğlu və Tağıyev Səbuhi Gündüz oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhid hərbi qulluqçularımızın yaxınlarına dərin hüznlə başsağlığı verir.

"Kaliber"in məlumatına görə, Ermənistan Silahlı Qüvvələri Azərbaycana qarşı planlaşdırılmış təxribatı həyata keçirib: "Bu, təsadüfi deyil, hazırlanmış əməliyyatdır. Ermənistan Silahlı Qüvvələrinin Əlahiddə Ümumqoşun Korpusunun komandiri Armen Gözəlyanın hadisə yerində olması da təsadüfi deyil. Ermənistanın Baş naziri Nikol Paşinyan dəfələrlə bəyan edib ki, Azərbaycan guya eskalasiya hazırlayır və bununla da, yəqin ki, sərhəd bölgəsində "kiçik əməliyyat" ümidi ilə Ordumuza qarşı aktiv əməliyyatlara zəmin yaradıb". Qeyd olunub ki, bugünkü insident bir qrup erməni hərbçinin Azərbaycan mövqelərinə yaxınlaşaraq mühəndis-tikinti işlərini görməsi ilə başlayıb. Hərbçilərimizin geri çəkilmə ilə bağlı sərt xəbərdarlığına cavab olaraq Ermənistan tərəfi mövqelərimizi intensiv atəşə tutub. Bundan sonra gərgin döyüş başlayıb: "Aydındır ki, Nikol Paşinyan hökuməti "AB missiyasının qoruyucu effektinə" inanaraq, bunu təxribatlar törətməyə lütf kimi qəbul edirdi. Yaranmış vəziyyətə görə bütün məsuliyyət tamamilə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür".

Xatırladaq ki, Ermənistanın korpus komandiri Armen Gözəlyan yaralanıb. Ermənistan Silahlı Qüvvələrinin Laçın istiqamətindəki mövqelərimizi İranın zenit-raket komplekslərindən istifadə etməklə atəşə tutduğu məlum olub. Düşmən ordusu ilk dəfədir ki, İranın pulsuz verdiyi PUA-lardan istifadə edib.

**Azərbaycan Xarici İşlər Nazirliyindən bildirilib ki, Ermənistanın bu kimi təxribatlarının beynəlxalq ictimaiyyət tərəfindən sülh sazişi üzrə danışıqlara ciddi çağırışlar fonunda baş verməsi İrəvanın sülh prosesində maraqlı olmadığını göstərir:** "Ermənistanın bu kimi hərbi təxribatları, eyni zamanda siyasi təhrikçi addımlarla və bəyanatlarla müşayiət olunur. Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərini tapdalayaraq Azərbaycana qarşı apardığı təxribatlar nəinki Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini pozur, eyni zamanda regional sülh və təhlükəsizliyi ciddi şəkildə təhdid edir. Ermənistanın bu əməlləri ciddi formada beynəlxalq ictimaiyyət tərəfindən rədd edilməli və qınanılmalıdır". Qeyd olunub ki, Ermənistanın təxribatlarının qarşısını almaq məqsədilə Azərbaycan Respublikasının Silahlı Qüvvələri bütün lazımi tədbirləri görür və bundan sonra da görəcək: "Bir daha bəyan edirik ki, Ermənistanın törətdiyi təxribatlara görə məsuliyyət tam şəkildə Ermənistanın üzərinə düşür".

**Millət vəkili, Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə "Şərq"ə bildirib ki, sərhəddə təxribatlara əl atan Ermənistan tərəfinin əsas məqsədi Azərbaycanla sülh müqaviləsinin imzalanma prosesini ləngitməkdir.** Deputatın sözlərinə görə, erməni tərəfi bütün dünyaya car çəkmək istəyir ki, guya, döyüşlər Ermənistan ərazisində gedir: "Xəbər verilib ki, ABŞ-nin dövlət katibi E.Blinkenin təşəbbüsü ilə may ayında Vaşinqtonda Azərbaycan və Ermənistan rəhbərlərinin növbəti görüşü planlaşdırılır. Ermənistan məhz növbəti görüş ehtimalını aradan qaldırmaq, danışıqlarda hər hansı nəticə əldə olunmasını aradan qaldırmaq üçün belə təxribatı həyata keçirib. Reallıq odur ki, Ermənistan sözdə hamıya "hə" deyir, ancaq əməldə bunun əksinə hərəkət edir. Münaqişəni uzatmağa çalışır. İrəvan Rusiya-Ukrayna müharibəsinin necə bitəcəyini, özünün yeni sahiblərinin kim olacağını gözləyir. Əgər hansısa dəyişiklik olmazsa, Ermənistan yenidən köhnə sahibinin - Rusiyanın qucağına qayıdacaq".

Siyasi şərhçi Asif Nərimanlı da "Şərq"ə bildirib ki, İrəvanın sərhəddə təxribata əl atacağı gözlənilən idi: "Azərbaycan işğal dövründə ermənilərin irəli çəkdiyi dövlət sərhədini xəritələrə uyğun bərpa edir, Ermənistan isə buna qarşıdır. Paşinyan yeni Laçın yolunun istifadəyə verilməsindən sonra Laçın istiqamətində sərhədin 5 kilometr hissəsinin razılaşdırılmadığını açıqlamışdı. Ermənilər bu istiqamətdə təxribat hücumu edib. Baş verənlər İrəvana həm də Avropa İttifaqı missiyasına Azərbaycanı "şikayət etmək üçün" lazımlı idi. Ermənistanın artilleriya və PUA-lardan istifadə etməsi, Laçın istiqamətində əlavə canlı qüvvə və ağır artilleriya cəmləməsi döyüşlərin miqyasının böyük olduğundan xəbər verir. Bundan öncə olduğu kimi, ordumuzun cavabı yenə ağır olacaq".

**İsmayıl Qocayev**



# Açıq şəkildə reinteqrasiya prosesini qəbul etmirlər

## Xankəndidəki separatçı rejimin nümayəndələri Bakıya görüş təklifini sülhməramlılar vasitəsilə göndərib

**Xankəndidəki separatçı rejimin nümayəndələri Bakıya görüş təklifi göndəriblər. Bu barədə məlumatı separatçıların "informasiya mərkəzi" yayıb. Məlumata görə, Azərbaycan nümayəndələri ilə görüş təklifi sülhməramlılar vasitəsilə göndərilib. Görüşün yenidən Xocalıda keçirilməsi və burada təxirə salınması mümkün olmayan humanitar məsələlərin müzakirəsi təklif edilib. Qeyd edək ki, bundan öncə Azərbaycan rəhbərliyi separatçılara Bakıda görüş təklif etsə də, onlar bundan imtina ediblər.**

*Politoloq Turan Rzayev "Şərq"ə deyib ki, Azərbaycan tərəfi separatçı rejimin təklifini qəbul etməməlidir.* Ekspert xatırladıb ki, Azərbaycan Prezident Administrasiyası iki dəfə Qarabağın erməni ictimaiyyətinin nümayəndələri ilə Bakıda görüş keçirilməsini təklif edib. Separatçıların dediyi "təxirə salınması mümkün olmayan humanitar məsələlər" varsa, bunu Bakıda da müzakirə etmək olar: "Xankəndidəki separatçı rejimin nümayəndələri Bakıya görüş təklifini sülhməramlılar vasitəsilə göndərib. Onlar təmasları sülhməramlıların vasitəsilə qurmaqla açıq şəkildə reinteqrasiya prosesini qəbul etmədiklərini və özlərini "tərəf" kimi göstərməyə çalışdıqlarını açıq şəkildə elan ediblər. Separatçıların bu təklifi ucuz şoudan başqa bir şey deyil. Bununla onlar beynəlxalq ictimaiyyəti yanıltmaq, təmaslarda maraqlı olduqlarını göstərməyə çalışırlar. Rəsmi Bakının Xankəndidəki separatçı rejimin nümayəndələrinə verəcəyi ən düzgün və adekvat cavab "görüş keçirilə bilər, lakin yenidən Xocalıda deyil, Azərbaycanın Prezident Administrasiyası təklif etdiyi kimi paytaxt Bakıda" olmalıdır".

**İsmayıl**

# Əsas açar Krımdır!

## Bu istiqamətdə hərəkətlənmə Ukrayna ordusunun prioritetindədir




**"Rusiya hərbi rəhbərliyi Baxmuta xüsusi təyinatlılarını cəlb etməli olacaq".**

Bunu Ukrayna Silahlı Qüvvələrinin Quru Qoşunlarının komandanı, general-polkovnik Aleksandr Sirski deyib.

O söyləyib ki, şəhərdə vəziyyət çətin, lakin idarə olunandır: "Rusiya Silahlı Qüvvələri "Suriya" taktikasından istifadə edir. Yəni onlar hava zərbələri və artilleriya atəşi ilə binaları və mövqeləri dağıdırlar".

Generalın sözlərinə, Baxmutdakı "Vaqner"çilər artıq taqətdən düşüblər.

Qeyd edək ki, altı aydan çoxdur, Donetsk vilayətinin Baxmut şəhərində gərgin döyüşlər gedir. Rusiya hərbçiləri şəhəri mühasirəyə aldıqlarını deyirlər. Ukrayna Müdafiə Nazirliyinin məlumatına görə isə Baxmutda vəziyyət Ukrayna qoşunlarının nəzarəti altındadır.

**Baxmutun hər iki tərəf üçün həm strateji, həm də psixoloji önəm daşıdığını deyən siyasi şərhçi Kənan Novruzov "Şərq"ə bildirib ki, hansı tərəf Baxmutda nəzarəti təmin edərsə, o, digərinə psixoloji zərbə vurmuş olacaq:** "Bu zərbə nəinki qarşı tərəfin silahlı qüvvələrinin, həmçinin onun xalqının da ruh düşgünlüyünə səbəb olacaq. Hətta yaxın zamanlarda Zelenski açıqlama vermişdi ki, Baxmut barəsində müvafiq qərar qəbul edəcəklər və onlar üçün əsas prioritet canlı qüvvə itkisinin az olmasıdır. Bəzi ekspertlərin fikrincə, Ukrayna ordusu Baxmutdan çıxa bilər. Zelenski məhz buna işarə etmişdi. Lakin bunu düşünmürəm.

Həmçinin yaxın həftələrdə Ukrayna silahlı qüvvələrinin əks-hücum əməliyyatlarına başlayacağı deyilir. Əsas məsələ isə bu əməliyyatlara qədər müqavimət göstərməkdir. Əgər əməliyyatlar başlasa, bu, Ukraynanın bir çox şəhərlərinə özünü göstərəcək. Ola bilsin ki, Rusiya qoşunlarının Baxmutdan sıxışdırılıb çıxarılması məhz əks-hücum əməliyyatlarından sonra baş versin".

*Analitik qeyd edib ki, indi Ukrayna üçün digər bir vacib məsələ Krım yarmadasıdır:* "Son zamanlar bu məsələ də gündəmdədir. Krım yarımadasında hərəkətlənmə Ukrayna ordusunun prioritetindədir. Düzdür, bu dəqiqə ora müdaxilə çətindir. Amma Rusiyanın Krımdakı bazalarına aviazərbələr endirilə bilər. Ümumiyyətlə, əgər Ukrayna tərəfi Krımda üstünlüyü ələ ala bilsə, Rusiyanın "beli qırılacaq". Yəni müharibənin əsas açarı Krımdır. Düşünürəm ki, Ukrayna ordusunun Baxmutda tam müdafiə olunmamasının səbəbi, onların diqqətini Krıma yönəltməsidir".

**Nihat Müzəffər**

# "Mən də müxalifətəm və burada oturmuşam"

## Sabir Rüstəmxanlı həmkarlarının ölkə müxalifətini ümumi tənqid etməsinə narazılığını bildirib



**Milli Məclisin dünənki iclasında millət vəkili, Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı bəzi həmkarlarının ölkə müxalifətini ümumi tənqid etməsinə narazılıq bildirib. Sabir Rüstəmxanlı deyib ki, müxalifət deyilində sərhəd qoyulmalıdır:**

"Burada bir çox çıxışlarda deyilir ki, "müxalifət elə etdi, "müxalifət belə etdi". Mən də müxalifətəm və burada oturmuşam, başqaları da var. Müharibə dövründə hamımız birlikdə Azərbaycan Prezidentinin apardığı siyasəti müdafiə etdik. Ona görə də bir qrupa görə bütün müxalifəti günahlandırmaq olmaz. 1988-ci ildən Azərbaycanda başlamış Xalq Hərəkatının yerini, mövqeyini kiçiltmək olmaz. Vaxtı ilə Heydər Əliyev yazıçılarla görüşündə demişdi ki, o, Moskvada olarkən 1988-ci ildə Azərbaycanda başlamış xalq hərəkatını izləyirdi. Millətimizin hərəkatı ilə qürur duyduğunu deyirdi. O vaxt bütün sovet respublikalarında bu hərəkat başlamışdı və SSRİ-nin dağılmasında rol oynadı. Sonra təcrübəsiz adamlar gəldi, ölkələr pis vəziyyətə düşdü. Bütün respublikalarda vəziyyət eyniydi. Ona görə də Xalq Hərəkatının üzərindən xətt çəkmək, hamısını düşmən elan etmək olmaz. Hamımız o hərəkatın iştirakçısı olmuşuq. İndiki halda Azərbaycanda milli birliyə böyük ehtiyac var. Cəbhələşməyə yol vermək olmaz".

Sabir Rüstəmxanlı sosial şəbəkələrdə aparılan tarixi müzakirələrə də toxunub: "Tarixi bilən də danışır, bilməyən də. Tarixlə bağlı nə qədər iftiralar atılır. Nəriman Nərimanov, Məhəmməd Əmin Rəsulzadə kimi insanlar barədə yanlış məlumatlar yer alır, onları üz-üzə qoymağa çalışırlar. Bunlar ona görə baş verir ki, onların tarixi yazılmayıb. Hərə öz istədiyi kimi yazıb. Sovet bir cür yazıb. Bu məsələlərlə bağlı obyektiv yazılı tarix, dövlətin münasibəti ortaya qoyulmalıdır. Məsələ sosial şəbəkələrin, subyektiv fikirlərin ümidinə qalıb. Hərə öz ağlı səviyyəsində danışır".

**Deputat Aydın Mirzəzadə də həmkarı Sabir Rüstəmxanlının "müxalifəti ümumiləşdirmək, hər kəsin üstündən xətt çəkmək olmaz" fikrinə münasibət bildirib. Parlament üzvü deyib ki, müxalifət deyəndə hər kəsi eyni tutmaq olmaz:** "Müxalifəti eyniləşdirməyi mən də doğru saymıram. Çünki parlament müxalifəti ilə yanaşı, radikal müxalifət də var. Sabir Rüstəmxanlının fikri ilə razıyam. Sabir Rüstəmxanlı da müxalifəti təmsil edir. Amma mən Sabir Rüstəmxanlı və Qüdrət Həsənquliyevlə Əli Kərimlini, Rəsul Quliyevi bir tuta bilmərəm. Bunlar tamam fərqli insanlardır. Normal müxalifət dövlətçiliyi sevir, amma müəyyən məsələlərlə bağlı narazılığını bildirir, iradını söyləyir. Demokratik mühitdə bu, təbiidir. Radikal müxalifət isə görülən bütün işlərin üzərindən xətt çəkir".

**Milli Məclisin sədri Sahibə Qafarova isə qeyd edib ki, xalqın gözü tərəzidir:** "Xalq yaxşı bilir ki, kim yaxşı, kim pis müxalifətdir".

**İsmayıl**

# Azərbaycan və Qazaxıstan saatları eyni anda qurdu

## Artıq bütün daşlar yerinə oturur və yeni formatlar yaranır



**Aprelin 10-da Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin geniş tərkibdə görüşü baş tutub. Görüşdən sonra Azərbaycan-Qazaxıstan sənədlərinin imzalanması mərasimi olub.**

Prezident İlham Əliyev və həmkarı Kasım-Jomart Tokayev "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası Ali Dövlətlərarası Şurasının yaradılması haqqında Protokolu" və dövlət başçılarının birgə bəyanatını imzalayıblar.

**"Yeni dünya düzəni" deyilən qaydalarda dəyişikliklərin baş verdiyini deyən Milli Dirçəliş Hərəkatı Partiyasının rəhbəri, sabiq millət vəkili Fərəc Quliyev "Şərq"ə vurğulayıb ki, artıq bütün daşlar yerinə oturur və yeni formatlar yaranır:** "O cümlədən Türk Dövlətləri Təşkilatı da (TDT) formalaşıb və bu, yeni gücdür. Bu təşkilatın güclənməsi baxımından Azərbaycan-Qazaxıstan münasibətlərinə yenidən baxılması və sənədlərin imzalanması çox əhəmiyyətlidir. Həmçinin Qazaxıstan KTMT-nin üzvüdür. Ermənistan isə bu təşkilatdan Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə etməyə çalışır. Son vaxtlar Avropa İttifaqının missiyası Ermənistan sərhədinə göndərildi. Bundan sonra KTMT də öz missiyasını bölgəyə göndərməyə cəhd edir. Yəni əgər missiya Azərbaycan-Ermənistan sərhədinə gələrsə, onun tərkibində olan Qazaxıstanla münasibətlərin gücləndirilməsi, KTMT-nin digər üzvləri ilə əlaqə saxlamaq baxımından önəmlidir. Digər tərəfdən, Şərq-Qərb dəhlizinin İnkişafı Qazaxıstan və Azərbaycandan xeyli dərəcədə asılıdır. Onlar tam olaraq "qızıl körpü" rolunu oynayırlar. Bu ticarət yolunun işlənməsi ilə hər iki ölkə qazanc götürmək istəyir. Həmçinin iqtisadi qazanclardan əlavə, siyasi mənada da müəyyən avantajların əldə edilməsi üçün Azərbaycan və Qazaxıstan ortaq davranmalıdır".

*Partiya sədrinin sözlərinə görə, Çinin və Qərbin bölgəyə marağı çox böyükdür:* "Hər kəs burada yeni proseslər üçün hazırlıqlar görür. Azərbaycan Prezidenti də son həftə ərzində iki dəfə Orta Asiya ölkələrinə səfər etməklə, bölgədəki maraqlarını aktual saxlamağa çalışır. Ümumiyyətlə, bu görüşlərin həm iqtisadi, həm də siyasi yükü var. Digər tərəfdən ortaq şuranın yaradılması, bir çox məsələlərə birlikdə baxılmasına şərait yaradır. Ərdoğanın sözləri ilə desək, TDT-də olan ölkələr gələcəyini ortaq müəyyənləşdirir. Düzdür, biz müxtəlif başqalarla məruz qala bilərik. Bundan qurtulmaq üçün isə qabaqlayıcı tədbirlər görülməlidir. Həsab edirəm ki, Azərbaycan-Qazaxıstan münasibətlərinin strateji müttəfiqlik səviyyəsinə yüksəldilməsi üçün bu görüşün çox böyük önəmi var".

**Nihat Müzəffər**

# Qiymətlərə yaxın düşmək olmur

## Bəzi reseptlərdə dərmanların qiyməti 400 manata yaxındır



### *Deputatların əksəriyyəti şikayətlərini dilə gətiriblər*

**Parlamentdə dərmanlarla bağlı problemlər qaldırılıb. Çıxış edən deputatların əksəriyyəti dərmanların qiymətləri və çatışmazlığı ilə bağlı şikayətlərini dilə gətiriblər. Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov bildirib ki, təkcə dərmanların qiyməti yox, eləcə də keyfiyyəti, əlçatanlığı və bu sahədə olan digər problemlərlə bağlı Səhiyyə Nazirliyi və hökumət birlikdə sənəd üzərində iş aparır. Deputat deyib ki, sənədin yaxın vaxtlarda qəbul ediləcəyi gözlənilir:**

"Sənədin hazırlanması ilə bağlı işlər artıq başa çatmaq üzrədir. Güman edirəm ki, yaxın vaxtlarda belə sənədi görəcəyik. Bununla da dərman vasitələri ilə bağlı mövcud olan problemlərin həlli nəzərdə tutulur".

**"Vətəndaş niyə yaxşı aptek axtarır?"**

**Deputat Razi Nurullayev qeyd edib ki, dərmanların qiyməti baha olmaqla bərabər keyfiyyətsiz və təsirsizdir:** "Alman, ingilis aptekləri var, dərmanlar bu apteklərdə daha baha qiymətədir. Vətəndaş niyə yaxşı aptek axtarır? Niyə bir aptekdə eyni tərkibli dərman 10 manata, digərində 100 manata satılır. Mən alman, ingilis apteklərinin olmasına qarşı deyiləm, vətəndaşların aldadılmasına qarşıyam. Yeri gəlmişkən, Qida Təhlükəsizliyi Agentliyi bu yaxınlarda məlumat yaydı ki, filan kolbasalarda ümumiyyətlə, ət yoxdur. Bu nə biabırçılıqdır? Dərman sahəsində də belə biabırçılıqlar aradan qaldırılmalıdır".

**"Almaniyada 5 avro olan dərman necə 150 avro ola bilər?"**

**Parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov nəzərə çatdırıb ki, elə dərmanlar var ki, Almaniya ilə müqayisədə 20 dəfə baha satılır:** "İki, üç dəfə qiymət baha olsa, haradasa başa düşmək olar. Ancaq Almaniyada 5 avro olan dərman necə 150 avro ola bilər? Dərman gətirən, satan, yoxlayan ayrı olmalıdır. Görürsən ki, bizdə dərman gətirən, ekspertizasını keçirən və aptekə verən də eyni adam olur. Bəzən dərman zavoduna belə sifariş verirlər ki, dərmanın tərkibi aşağı olsun, qiyməti ucuz olsun. Buna görə də dərmanların keyfiyyəti olmur. Digər tərəfdən, insanların xaricdən müalicələri üçün dərman gətirməsinə maneələr də aradan qaldırılmalıdır. Qoyun insanlar müalicələri üçün dərmanlar gətirsinlər. Türkiyədə belə bir praktika var ki, Səhiyyə Nazirliyi nümayəndəsi adi geyimdə girib hər hansı bir aptekdən dərman alır. Və yoxlama aparır. Nəticə pis olanda həmin apteklər bağlanır. Həmin praktika bizdə də tətbiq olunmalıdır. Belə olarsa, vaxtı keçmiş dərmanların satışının da qarşısı alınar".

**"TƏBİB-ə düşmək isə kosmosa düşmək kimi bir şeydir"**

**Deputat Fəzail Ağamalı da deyib ki, dərman vasitələrinin qiymətlərinə əlçatanlığın olmaması problemi var:** "Belə problem var, bu, reallıqdır. Burada bazar iqtisadiyyatı, dərman gətirən və satanların maraqları, o cümlədən möhtəkirlər var. Dərmanlara nəzarəti mərkəzi icra strukturlarının birinə həvalə etmək olar. İndi bilmir ki, bu dərman məsələsinə Səhiyyə Nazirliyi, yoxsa başqa qurum baxır. Əvvəllər məsələlərə təkcə Səhiyyə Nazirliyi baxırdı, indi müraciət edirsən, deyir ki, o məsələyə TƏBİB baxır, ora düşmək isə kosmosa düşmək kimi bir şeydir".

**"Sahibkarlar dərmanları konkret bir ölkədən gətirirlər"**

**Deputat Vüqar Bayramov bildirib ki, keçən il hökumət dərman alınmasına 505 milyon manat xərcləyib və bu, dərman vasitələrinə ayrılan vəsaitin 2 dəfə artdığını göstərir:** "Dərmanların qiymətinə idxal prosedurlarının asanlaşdırılması da təsir göstərə bilər. Dərmanların qiymətinin tənzimlənməsi mexanizminin təkmilləşdirilməsinə də ehtiyac var. Bəzi hallarda dərmanların qiyməti düzgün tənzimlənmədiyi üçün sahibkarlar dərmanları konkret bir ölkədən gətirirlər".

**"Dərman düzəldən laboratoriyalar da yoxa çıxıb"**

**Deputat Etibar Əliyev Azərbaycanda apteklərin alman, türk və göbələk kimi artan yerli apteklərə bölündüyünü söyləyib:** "Alman və türk apteklərindən dərman alanda soruşuruq ki, keyfiyyəti nədir? Yeri gəlmişkən, dərman düzəldən laboratoriyalar da yoxa çıxıb. Əvvəllər xəstələr bir-iki qutu dərmanla müalicə olunurdusa, indi 4-5 qutu dərmanla müalicə olunmalı olurlar. Dərmanların ekspertizası barədə məlumat bazası geniş olmalıdır".

**"Türkiyədə azərbaycanlılar var, dərman istehsal edir, Türkiyədən xaricə də satırlar"**

**Deputat Qənirə Paşayeva hesab edir ki, inhisarçılığa son qoyularsa, rəqabət yaranarsa, dərmanların qiyməti də ucuzlaşacaq:** "Səfərə gedəndə tanıdığımız insanlar zəng edirlər ki, müalicə üçün filan dərmanı gətirin, çünki Azərbaycanda qiyməti çox bahadır. Yeri gəlmişkən, bəzi əlillərimizin müalicəsi davam etdiyi və hələ əlillik dərəcələri almadığı üçün müalicə etməyə dərmanlar alırlar. Onların əllərindəki bəzi reseptlərdə dərmanların qiyməti 400 manata yaxındır. Bu məsələnin də həllinə diqqət yetirilməlidir. Bir məqamı qeyd edim. Türkiyədə azərbaycanlılar var, dərman istehsal edir, Türkiyədən xaricə də satırlar. Bu insanlar niyə Azərbaycanda belə dərman istehsalı yarada bilmirlər?".

**"İran dərmanının tərkibində narkotik olub"**

**Deputat Hikmət Babaoğlu idxal olunan dərmanların tərkibinin yenidən yoxlanılmasını təklif edib:** "Bir vaxt İran dərmanlarından istifadə edən bir qohumumuzun Moskvada yoxlanılması zamanı məlum olmuşdu ki, İran dərmanının tərkibində narkotik olub. Ona görə idxal olunan dərmanlar yoxlanılmalıdır".

**İsmayıl**








# İran mediası Bakını təhdid edir

## İbrahim Nəbioğlu: "İranın dərdi Azərbaycanla deyil, onun yuxusunu ərşə çıxaran Turanın ayaq səsləridir"

### *Rauf Arifoğlu: "İran hakimiyyətinin Azərbaycana dil uzatması onun durumunu daha da mürəkkəbləşdirir, iflasını sürətləndirir"*

**Tanınmış jurnalist, tərcüməçi İbrahim Nəbioğlu öz feysbuk hesabında İranın "Tehran Times" qəzetinin manşetini paylaşıb. Manşetə "Bakı Ukrayna hadisələrindən dərs çıxarmalıdır" başlığı qoyulub.**

İbrahim Nəbioğlu yazır ki, qəzet Azərbaycanı rəsmən təhdid edir, savaşla qorxudur: "Halbuki İranın dərdi Azərbaycanla deyil, onun yuxusunu ərşə çıxaran Turanın ayaq səsləri, Türk Dünyasının şahlanış marşıdır".

Qeyd edək ki, aprelin 1-də İran Azərbaycan Xarici İşlər Nazirliyinə etiraz notası təqdim edib Etiraz notasında İran Azərbaycanın bəzi media qurumlarının "nalayiq və təhqiramiz hərəkətləri"nin davam etməsindən narahatlığını bildirib.

İranın Azərbaycan mediasına qarşı bu cür "əxlaqlı" iddiası və buna görə nota verməsi beynəlxalq diplomatiyaya qətiyyən uyğun deyil.

Məsələyə münasibət bildirən "Yeni Müsavat" media qrupunun rəhbəri Rauf Arifoğlu "Şərq"ə açıqlamasında bildirib ki, İran mediası, dövlət nümayəndələri, siyasi fiqurlar Azərbaycana münasibətdə hədlərini aşıb. İran Azərbaycana qarşı elan olunmamış hibdrid müharibə aparır: "İran nəinki informasiya sahəsində, həmçinin reallıqda da terror aktları törətməkdədir. Onlardan biri Tehrandakı səfirliyimizdə baş verən terror hadisəsidir. Digəri isə Bakıda Zabrat qəsəbəsində millət vəkili Fazil Mustafaya qarşı törədilən sui-qəsd cəhdidir. Özünü müsəlman adlandıran İran, Azərbaycanın Qarabağ Zəfərindən sonra çox əsəbi, narahat vəziyyətdədir, açıq şəkildə düşmənçilik siyasəti yürüdür. Buna baxmayaraq, Azərbaycan dövləti, mediası İrana münasibətdə dürüstdür, korrektir. Yalnız cavab xarakterli addımlar atır. "Tehran Times" qəzeti getsin ölkənin daxili problemlərindən, çökməkdə olan İran molla rejimindən yazsın. Hazırda əmmaməli mollalar Tehran, Təbriz, İsfahan, Rəşt, Ərdəbil və digər ərazilərdə küçədə rahat gəzə bilmirlər. Əmmamələri başlarından atır, onları ələ salırlar. Belə bir vəziyyətdə olan hakimiyyətin Azərbaycana dil uzatması onun durumunu daha da mürəkkəbləşdirir, iflasını sürətləndirir".

**Aygün Tahir**

# İran regionda ən böyük təhlükədir

## Azərbaycanlı general ABŞ hərbi rəhbərliyi ilə məsləhətləşmə aparır



**Azərbaycan Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin Komandanı, general-leytenant Ramiz Tahirov Amerika Birləşmiş Ştatlarına (ABŞ) səfər edib.**

Səfər çərçivəsində general-leytenant R.Tahirov ABŞ Hərbi Hava Qüvvələrinin komandanı ordu generalı Çarlz Braun ilə görüşüb.

Tərəflər hərbi əməkdaşlığın cari vəziyyəti və regional təhlükəsizlik məsələlərinə dair ətraflı fikir mübadiləsi aparıblar.

Görüşdə Azərbaycanın ABŞ-dəki səfiri Xəzər İbrahim də iştirak edib.

**Səfəri "Şərq"ə dəyərləndirən hərbi ekspert Elxan Şıxəliyev qeyd edib ki, Azərbaycan silahlı qüvvələri NATO ilə sülhməramlı tərəfdaşlıq proqramı çərçivəsində əməkdaşlıq edir:** "ABŞ də NATO-nun aparıcı ölkəsidir və onun rəhbərliyi ilə regional problemlərin mövcud konfliktləri üzərindən məsləhətləşmələrin aparılması normaldır. Ümumiyyətlə, indiki konfliktlərdə hərbi hava qüvvələri və hava hücumundan müdafiə sistemləri vacib məsələdir. Bundan əlavə sülhməramlı tərəfdaşlıq proqramında Azərbaycan silahlı qüvvələrinin mütəxəssisləri, NATO-nun hərbi hava qüvvələrinin mərkəzlərində təlimlərdə iştirak edir. Ümumiyyətlə, proqramın həyata keçirilməsi üçün planlı görüşlər var. Biz hər zaman qeyd etmişik ki, hərbi əməkdaşlığımız, müdafiə qabiliyyətimizi artırmağa yönəlib".

*Ekspertin sözlərinə görə, Azərbaycan silahlı qüvvələrinin rəhbərliyi digər ölkələrlə ölkənin təhlükəsizliyini təmin etmək üçün, məsləhətləşmələr aparır:* "Digər tərəfdən, biz regionda həssas məqamdan keçirik. Xüsusən də İranın Ermənistanın üzərindən Azərbaycana təhlükə yarada biləcək bəyanatlar verməsi və təlimlər keçirməsi ABŞ-ni də narahat edir. Çünki Azərbaycanın Amerika ilə təkcə hərbi sahədə yox, həm də karbohidrogen ehtiyatlarının Avropaya çıxarılması və iqtisadi baxımdan ciddi əlaqələri var. Ona görə də Avropaya gedən infrastrukturların, xüsusilə İran tərəfindən gələ biləcək təhlükələrdən qorunması üçün məsləhətləşmələr çox vacibdir. Düşünürəm ki, görüşdə bütün bu məsələlər masaya yatırılıb".

**Nihat Müzəffər**

# Dərd varsa, dərmanı parlamentdədir

## Millət vəkilləri özləri dərmanların qiymətini ucuzlaşdıra bilərlər



### *"Preparatların ölkəyə gətirilməsinə tətbiq olunan ƏDV-ni ləğv etsinlər. Bu, parlamentin səlahiyyətindədir"*

Dərman preparatlarının qiymətinin yüksək olması Milli Məclisdə yenə müzakirəyə çıxarılıb. Millət vəkili Vahid Əhmədov dərman vasitələrinin qiymətləri ilə əlaqəli hökumət tərəfindən xüsusi layihə hazırlandığı haqda məlumata sahib olduqlarını xatırladaraq: "Uzun müddət keçməsinə baxmayaraq, həmin layihə barədə hələ də heç bir məlumat yoxdur. Çünki dərmanların qiymətlərinin baha olması ciddi problemlərdən biridir", söyləyib. Parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov isə deputat həmkarının dediklərinə cavab olaraq bildirib ki, tək dərmanların qiyməti yox, eləcə də keyfiyyəti, əlçatanlığı və bu sahədə olan digər problemlərlə bağlı Səhiyyə Nazirliyi və hökumət birlikdə sənəd üzərində iş aparır: "Sənədin hazırlanması ilə bağlı işlər artıq başa çatmaq üzrədir. Güman edirəm ki, yaxın vaxtlarda belə sənədi görəcəyik. Bununla da dərman vasitələri ilə bağlı mövcud olan problemlərin həlli nəzərdə tutulur".

Dərman preparatları ilə bağlı gərginlik niyə aradan qalxmır? İqtisadçı Natiq Cəfərli "Şərq"ə açıqlamasında qeyd etdi ki, dərman bazarıyla bağlı dövlətin 2 ana xətti olmalıdır:

- Birincisi, təhlükəsizlik, ikincisi, bazarda rəqabət mühitinin formalaşmasına şərait yaratmaq. Dərman vasitələrinin qiymətlərinin, həmçinin keyfiyyətinin, əlçatanlığının təmin edilməsi üçün ayrıca sənədə ehtiyac da yoxdur. Bir neçə vacib addımın atılması yetərlidir ki, bu problemlər avtomatik həllini tapsın. Millət vəkilləri özləri bu problemi həll edə bilər. Dərman preparatlarının ölkəyə gətirilməsinə tətbiq olunan ƏDV-ni ləğv etsinlər. Bu, parlamentin səlahiyyətindədir. Dərman preparatlarının idxalına tətbiq eidlən 18 faiz ƏDV ləğv edildikdən sonra dərmanların qiyməti ucuzlaşacaq. Dərmanların qiyməti bu məsələ Tarif Şurasına tapşırıldıqdan sonra baş verdi. Tarif Şurasının qiymət tənzimləmə mexanizmi yanlışdır. TŞ dərmanların qiymətini molekullara və istehsalçı ölkəyə görə tənzimləyir. Bu isə istehsalçının ucuz və keyfiyyətsiz molekullardan isitfadə etməsini şərtləndirir. Ona görə də dərmanlar keyfiyyətsizdir. Bazarda isə rəqabət mühiti olmadığından qiymət bahalığı baş verir. Qiymət siyasətində ən vacib tənzimləyici amil rəqabətdir. Tarif Şurasının qiymət tənzimləmə mexanizmi ləğv edilməli, müxtəlif dərman şirkətlərinin bazara daxil olmasına imkan verilməlidir. Xarici ölkələrdə dərman preparatları bizim ölkəyə nisbətən ona görə dəfələrlə ucuz və keyfiyyətlidir ki, orada sağlam rəqabət mühiti var. İstehsalçı bazara yüksək qiymətə dərman çıxara bilməz. Çünki istehlakçının ondan ucuz, amma keyfiyyət fərqi olmayan dərmanı başqa istehsalçıdan əldə etmək imkanı var. Bizdə dərman preparatlarının qiymətinin yüksək olmasının bir səbəbi də 96 faiz idxaldan asılı olmağımızdır.

**Məlahət Rzayeva**

# Yeni yol xəritəsi cızılır

## Türk dövlətləri arasında ticarət dövriyyəsi 70 faiz artıb



**Azərbaycanın xarici siyasətində prioritet istiqamətlərindən birini türk dünyası, Mərkəzi Asiya respublikaları ilə siyasət təşkil edir. Bu istiqamətdə bölgənin coğrafi cəhətdən ən böyük, təbii enerji resurslarına görə vacib dövləti Qazaxıstanla münasibətlər xüsusi yer tutur. Azərbaycan və Qazaxıstan xalqları ciddi tarixi sınaqlardan keçərək suverenliklərini qorumağı bacarıb. Bu gün hər iki respublika üçün yeni imkanlar və perspektivlər açılıb.**

Xəbər verildiyi kimi, aprelin 10-da Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri baş tutdu. Olduqca məhsuldar keçən səfər zamanı mühüm sənədlər imzalandı. İkitərəfli görüşlərdən sonra mətbuata bəyanat verən dövlət başçıları ölkələrimiz arasında münasibətləri yüksək qiymətləndirdilər. Azərbaycan və Qazaxıstan arasında siyasi müttəfiqlik təhlükəsizlik və suverenlik amilləri baxımından olduqca vacib nüans kimi qeyd edilir. Təsadüfi deyil ki, səfər zamanı Qazaxıstan neftinin Azərbaycandan keçməklə tranzitinin başlanması, Orta Dəhlizin imkanlarını tam həcmdə səfərbər etmək üçün işlərə başlanması haqqında qərarlar verilib. Məlumdur ki, hazırda Ukraynadakı müharibə fonunda dünya bazarına çıxmaq üçün Qazaxıstan bəzi çağırışlarla üz-üzə qalıb. Xəzər Boru Kəməri Konsorsiumu, Atırau-Samara neft kəməri, Aktau-Mahaçqala istiqamətləri mövcud olsa da, Aktau-Bakı marşrutu hazırda perspektivli istiqamət kimi qəbul edilir. Artıq bu ildən etibarən adıçəkilən marşrut üzrə nəqlə başlanılıb. Qazaxıstan neftinin BTC ilə nəqli SOCAR və "KazMunayQaz" şirkəti arasında ildə 1,5 milyon ton neftin tranzitini nəzərdə tutan saziş çərçivəsində həyata keçirilir. Qazaxıstan neftinin Avropaya nəqlində Azərbaycanın rolunun artması gələcəkdə Qərbin enerji təhlükəsizliyi üçün Xəzər hovuzunun rolunun daha da artmasına səbəb olacaq. Son bir neçə ildə Azərbaycan və Qazaxıstan arasında dövlətlərin bir-birinə inteqrasiyası və türklük ideologiyasının inkişafı üçün ciddi işlər aparılmaqdadır. Hazırda iki ölkə arasında siyasi tədqiqatçıların, politoloqların dialoqu intensivləşməkdədir. Eyni zamanda ali təhsil müəssisələri və media institutları arasında da əlaqələrə start verilib.

### *Azərbaycan və Qazaxıstan Türk dünyasının inkişafına və daha da yaxınlaşmasına xüsusi töhfə verirlər*

**Millət vəkili Vüqar Bayramov "Şərq"ə bildirib ki, son illər Azərbaycanla Qazaxıstan arasındakı münasibətlərin daha da dərinləşməsi müşahidə olunur. Deputatın sözlərinə görə, bu, özünü iki ölkə arasındakı ticarət dövriyyəsində də göstərməkdədir:** "Qazaxıstan ilə dövriyyəmiz ötən il əvvəlki ilə nisbətən 4.4 dəfə artaraq 598 milyon dolları dək yüksəlib. Azərbaycan və Qazaxıstan Orta Dəhlizin reallaşmasına regional töhfə verən ölkələrdəndir. Ötən il hər iki ölkə üzərindən daşınan yüklərin həcmində artım qeyd alınıb. Hər iki ölkə nəqliyyat və logistik infrastrukturunu inkişaf etdirməklə region üzərindən daha çox yüklərin daşınmasına nail ola biliblər. Bütövlükdə, son illər türk dövlətləri arasında iqtisadi əlaqələrin sürətli inkişafı və ticarət dövriyyəsində kəskin artımlar müşahidə olunur. 2022-ci ildə Azərbaycan ilə Türk dövlətləri arasında ticarət dövriyyəsi əvvəlki il ilə müqayisədə 70 faiz artıb. Türk Dövlətləri Təşkilatının üzvləri olan Azərbaycan və Qazaxıstan Türk dünyasının inkişafına və daha da yaxınlaşmasına xüsusi töhfə verirlər. Bu baxımdan, Azərbaycan Prezidentinin son səfəri iki ölkə arasındakı iqtisadi əlaqələrin daha da dərinləşməsinə xidmət etməklə yanaşı, türk dövlətlərinin daha sıx əməkdaşlığı üçün də yeni imkanlar yaradır".

**Ədalət Partiyasının sədr müavini, politoloq Elxan Şükürli bildirib ki, Prezident İlham Əliyev son bir həftə ərzində Orta Asiyanın iki respublikasına səfərə gedib.** Aprelin 5-də Tacikistana, aprelin 10-da isə Qazaxıstana. Politoloq deyib ki, hər iki respublika Asiya nəhəngi Çinlə birbaşa sərhədə və oradan keçən yolların üzərində strateji mövqeyə sahib olmaqla yanaşı, həm də Rusiya ilə eyni hərbi ittifaqın - KTMT-nin üzvləridir: "Hazırda Ermənistanın Avropa İttifaqına qoşulmaq üçün KTMT-dən çıxmaq cəhdlərinin xeyli artdığı və Rusiya ilə münasibətlərinin kəskinləşdiyi indiki ərəfədə Azərbaycanın bu ittifaqa daxil olan ölkələrlə ikitərəfli münasibətlərini istiləşdirməsi Azərbaycan-KTMT münasibətlərinə də yeni və həmişəkindən fərqli məzmun qatır. Məlumdur ki, Nikol Paşinyan hökumətinin etirazlarına baxmayaraq, Rusiya tərəfi KTMT silahlılarının Ermənistanla sərhəddə yerləşdirilməsində israr edir. Elə Paşinyanın aqibəti də xeyli dərəcədə bu qərardan asılıdır. Eyni zamanda, gələcəkdə Azərbaycan ərazisində - Qarabağdakı rus sülhməramlılarının da KTMT silahlıları ilə əvəzlənməsi baş verə bilər. Digər tərəfdən, "Taliban"ın Əfqanıstanda hakimiyyətə gətirilməsi Mərkəzi Asiya respublikalarının öz sərhədlərini qoruması üçün Rusiyaya sığınmaq ehtiyacı yaradır. Nüvə silahı əldə etməyin bir addımlığında olan İranın Cənubi Qafqaz regionunda artan fəallığı, xüsusən də Azərbaycanla gərginləşdirilən münasibətlər Kremlin təklif etdiyi təhlükəsizlik çətirini rəsmi Bakı üçün də xeyli cəlbedici edə bilər. Üstəlik, o amili də nəzərə almalıyıq ki, Rusiya hələlik Qoşulmama Hərəkatında təmsilçiliyə üstünlük verən Azərbaycanı özünün hökmran olduğu Avrasiya İttifaqında, həmçinin KTMT-də görmək istəyini dəfələrlə bildirib. Azərbaycan isə Ermənistanla problemlərin mövcudluğu şəraitində bunun mümkün olmadığını deyib. Əgər Azərbaycan və Ermənistan arasında rəsmi Bakının təklif etdiyi şərtlər əsasında sülh müqaviləsi məhz Rusiyanın vasitəçiliyi ilə baş tutacaqsa, böyük ehtimalla, Azərbaycanın yenidən KTMT-yə cəlb edilməsi prosesi də aktuallaşacaq. Bu halda Rusiya, keçmiş SSRİ dönəmində olduğu kimi, yenidən İranla sərhədlərə özünün nəzarətini bərpa etmiş olacaq".

**İsmayıl**



# Bakı şəhərində çox ciddi sıxlıq var

## Metrostansiyaların sayını 100-ə çatdırmaq lazımdır

**"Hörmətli həmkarımız Fazil Mustafaya qarşı terror aksiyası təşkil edən, xarici dövlətlərlə, xüsusilə də İran xüsusi xidmət orqanları ilə işbirliyində olan cinayətkar dəstənin üzvləri ifşa olundu. Daxili İşlər Nazirliyinin əməkdaşları yüksək peşəkarlıqla bu cinayətin üstünü qısa müddətdə açdılar".**

Bunu millət vəkili Qüdrət Həsənquliyev deyib. Deputat bildirib ki, Bakı şəhərində təhlükəsizlik kameralarıın sayının artırılmasına çox ciddi ehtiyac var. Parlament üzvü rəqəmlərə istinad edərək bildirib ki, 9 milyon insanın yaşadığı Londonda 442 min 562 təhlükəsizlik kameraları quraşdırılıb. Bu hər 10 nəfərə bir təhlükəsizlik kamerası deməkdir: "Fiziki və hüquqi şəxslər tərəfindən quraşdırılan təhlükəsizlik kameraları, yəni ictimai təhlükəsizlik kameraları da nəzərə alınarsa, Londonda 4 milyon 441 min təhlükəsizlik kamerası var. Bu isə o deməkdir ki, Londonda hər iki nəfərə, təqribən bir təhlükəsizlik kamerası düşür. Bunu ona görə söyləyirəm ki, təhlükəsizlik kameraları cinayətkarların ifşa olunmasında böyük rol oynayır. Həm də onun çox böyük xəbərdaredici əhəmiyyəti var. İnsanları cinayət törətməkdən çəkindirir. Mən vaxtilə Şəhərsalma və Tikinti Məcəlləsi qəbul olunanda da dedim ki, bütün yaşayış binalarında təhlükəsizlik kameralarının quraşdırılmasını həmin tikinti şirkətlərinin öz ixtiyarına buraxmaq lazımdır".

**Q.Həsənquliyev nəqliyyatdakı problemlərdən də söz açıb:** "Bakı şəhərində çox ciddi sıxlıq var. Hesab edirəm ki, xüsusi dövlət proqramı qəbul olunmalıdır. Ən azı 5 il ərzində Bakıda metrostansiyalarının sayını 100-ə çatdırmaq lazımdır. Bunun üçün həm Dövlət Neft Fondundan vəsait ayırmaq, həm də xarici şirkətləri və investorları bu işə cəlb etmək olar".

**İsmayıl**

# İranda xalq azadlıq və dəyişiklik istəyir

## Ölkədə iqtisadi vəziyyətin pisləşməsi də prosesin sönməyə doğru getməsinə imkan vermir



**Aprelin 9-dan etibarən İranda etiraz fəallığı yenidən kəskin artıb. Etirazların əsas səbəbi ölkədə iqtisadi vəziyyətin pisləşməsi, rejimin basqısı və son zamanlar tələbələrin yenidən zəhərlənməsidir. Aprelin 9-da İranın 12 əyalətinin 16 şəhərində etiraz aksiyaları keçirilib. Bu etirazların əksəriyyəti iqtisadi motivli olub.**

Müxtəlif hökumət rəsmiləri və qurumları son həftələrdə elan ediblər ki, İranda inflyasiyanın səviyyəsi 40-50 faiz arasında dəyişir. ABŞ-nin Müharibə Araşdırmaları İnstitutunun məlumatına görə, hökumətə bağlı media orqanları İbrahim Rəisi administrasiyasının iqtisadi komandasında dəyişikliyin olacağı ilə bağlı xəbərlər yaymaqdadır. Proqram və Büdcə Təşkilatının rəhbəri Məsud Mir Kazeminin və iqtisadiyyat və maliyyə naziri Ehsan Xanduzinin istefaya göndəriləcəyi gözlənilir. Qeyd edək ki, fevralın 15-dən İranda tələbə qızların kütləvi zəhərlənməsi halları geniş yayılıb. Xatırladaq ki, İranda etiraz aksiyaları ötən il sentyabrın 17-də 22 yaşlı Məhsa Əmininin işgəncə nəticəsində öldürülməsindən sonra başlayıb.

**Azərbaycan Demokrat Partiyasının sədr müavini Həsrət Rüstəmov "Şərq"ə açıqlamasında deyib ki, İrandakı etirazların davamlı olmasının, rejimin bütün cəhdlərinə baxmayaraq, xalqın geri durmamasının əsas səbəbi odur ki, insanlar rejimdən beziblər. Politoloq bildirib ki, xalq azadlıq və dəyişiklik istəyir:** "Eyni zamanda İran hakimiyyəti daxilindəki zahirən görünməyən konfliktlər, sosial-iqtisadi vəziyyətin getdikcə pisləşməsi, rejim dəyişikliyi istəyən xarici güclərin təsiri və s. kimi çoxsaylı faktorlar da prosesin sönməyə doğru getməsinə imkan vermir. Aksiyaların başlanmasından indiyədək olan vəziyyətə dönüb baxsaq, görərik ki, hakim rejimin məcburən geri atdığı kiçik addımlar kütləni qane etmir. Bu baxımdan aksiyaların iki-üç səlahiyyətlinin uzaqlaşdırılması ilə dayanması qeyri-mümkün görünür. Əksinə, hakimiyyət geri addım atdıqca, etirazların daha da artacağını güman etmək olar. İrandakı etirazları ümumiyyətlə, son illərdə dünyada baş verən ən unikal siyasi proses kimi dəyərləndirmək olar. Bu qədər uzun müddətdə davam etməsi, rejimin ən qəddar cəzalarına baxmayaraq, insanların mübarizədən qorxub çəkinməməsi onu deməyə əsas verir ki, etirazlar gec-tez İranda ciddi siyasi dəyişikliklərə gətirib çıxaracaq".

**İsmayıl Qocayev**

# "Qətiyyən yolumuzdan dönməyəcəyik"

## Qərbi azərbaycanlıların məsələsi heç vaxt daxili və xarici gündəmdən kənarda qalmayacaq

**Bir qrup Qərbi azərbaycanlı qadın Avropa Komissiyasının prezidenti Ursula fon der Layenə müraciət ediblər. Bu barədə Qərbi Azərbaycan İcmasından məlumat verilib. Onlar müraciətdə Ermənistanın törətdiyi etnik təmizləmə və digər insanlıq əleyhinə cinayətlər barədə məlumat verib. Eləcə də qadın və uşaqların xüsusi ehtiyacları nəzərə alınmaqla, azərbaycanlıların öz vətənlərinə təhlükəsiz və ləyaqətli şəkildə qayıtmalarına Avropa Komissiyasının praktik yardımlarını xahiş ediblər.**



Qərbi Azərbaycandan olan ziyalı qadınlar və gənc tələbə qızların imzaladığı müraciətdə bildirilib ki, 1989-cu ildə yaradılmış Qərbi Azərbaycan İcmasının məramı öz evlərini tərk etməyə məcbur olmuş azərbaycanlıların hüquqlarını müdafiə etmək və onların təhlükəsiz və ləyaqətli şəkildə qayıtmalarını təmin etmək məqsədi daşıyır. Qeyd olunub ki, Ermənistanın azərbaycanlılara qarşı həyata keçirdiyi total etnik təmizləmə nəticəsində bu ölkədə bir nəfər də olsun azərbaycanlı qalmayıb. Bu, icmamıza dağıdıcı təsir göstərib və xüsusən qadınlar və qızlarımızı böyük əzablara düçar edib. Vurğulanıb ki, Qərbi Azərbaycan İcması BMT Təhlükəsizlik Şurasının müvafiq qətnaməsinə uyğun olaraq qadınlar, sülh və təhlükəsizlik gündəliyinə xüsusi önəm verir: "Təşkilatımızın hazırladığı Qayıdış Konsepsiyasında qadınlar, uşaqlar və sosial baxımdan həssas əhali qrupuna aid edilən şəxslərin maraqları əsas prioritet hesab edilir. Bu sahədə beynəlxalq səviyyədə qəbul edilmiş mütərəqqi yanaşma və standartların, o cümlədən qadınlar, sülh və təhlükəsizlik gündəliyinin qayıdış prosesində mərkəzi rol oynaması nəzərdə tutulur. Əminik ki, qadınların rolunun artırılması dinc və sabit cəmiyyət yaratmaq üçün vacibdir. Biz bu gündəliyi təşviq etməyə sadiqik. Müvafiq olaraq, repatriasiya və reinteqrasiya prosesinin davamlı və effektiv olmasını təmin etmək üçün qadınların bu prosesdə fəal iştirakını nəzərdə tuturuq". Əlavə olunub ki, Ermənistan təkcə azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirməklə kifayətlənməyib. Həm də Ermənistandakı Azərbaycan mədəni irsini sistemli şəkildə məhv edib: "Biz Avropa Komissiyasının ümumilikdə qayıdışımız üçün və ələlxüsus azərbaycanlı qadın və qızların Ermənistana repatriasiyası, reabilitasiyası və reinteqrasiyası zamanı xüsusi ehtiyaclarının ödənilməsinə xidmət edən proqramların işlənib hazırlanması və həyata keçirilməsi üçün müvafiq praktiki yardımını yüksək qiymətləndirərdik".

Qərbi Azərbaycan İcması ötən gün BMT-nin Baş katibi Antonio Quterreşə də məktub göndərib. Məktubda Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtması prosesinə başlamaq üçün bu ölkəyə BMT-nin xüsusi missiyasının göndərilməsi xahiş edilib. Məlumat verilib ki, azərbaycanlıların vaxtilə mütləq əksəriyyət təşkil etdikləri Ermənistanın indiki ərazisindən qovulması 1991-ci ildə başa çatdırılıb: "Etnik təmizləmə nəticəsində Ermənistanda bir nəfər belə azərbaycanlı qalmayıb. Ermənistandakı Azərbaycan tarixi-mədəni irsi, o cümlədən məscidlər və qəbiristanlıqlar geniş miqyasda dağıdılıb, bütün Azərbaycan toponimləri dəyişdirilib. Azərbaycanlıların Ermənistandan qovulması siyasi, hüquqi və humanitar ölçüləri nəzərə alsaq, misli görünməyən ədalətsizlikdir. Biz istərdik ki, bu haqsızlıq aradan qaldırılsın. Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktda və digər mühüm beynəlxalq aktlarda təsbit olunmuş geri qayıtmaq hüququna əsaslanaraq, biz öz evlərimizə təhlükəsiz və ləyaqətlə qayıtmağa can atırıq". Xatırladaq ki, İcma Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelə də məktub ünvanlayıb.

**Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasının sədri, millət vəkili Məlahət İbrahimqızı "Şərq"ə açıqlamasında deyib ki, Ermənistan tərəfi ciddi-cəhdlə çalışır ki, Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdışı istiqamətində həyata keçirdiyi fəaliyyət, gördüyü işlər, atdığı addımlar gündəmdən çıxsın, arxa plana keçsin. Deputatın sözlərinə görə, erməni tərəfi bilməlidir ki, Qərbi azərbaycanlıların məsələsi heç vaxt daxili və xarici gündəmdən kənarda qalmayacaq:** "Qərbi azərbaycanlılar öz tarixi torpaqlarına geri dönənədək bu istiqamətdə beynəlxalq müstəvidə aparılan mübarizə davam edəcək. Qətiyyən yolumuzdan dönməyəcəyik. 1987-1991-ci illər ərzində 300 mindən çox azərbaycanlı indiki Ermənistandan zorla qovulub. Xalqımız bir neçə dəfə deportasiyaya, soyqırımlara məruz qalıb, qaçqınlıq həyatı yaşamağa məcbur olublar. 1991-93-cü illərdə, müasir dövrdə, özü də beynəlxalq təşkilatların gözü önündə Qərbi Azərbaycandan yüz minlərlə soydaşımız etnik təmizləməyə məruz qaldı. Bunu necə unutdurmaq olar?! Əksər beynəlxalq qurumların, Avropanın nüfuzlu strukturlarının, o cümlədən BMT-nin qaçqınlar üzrə xüsusi orqanları var. Bütün müvafiq qurumlarla daim əlaqədə olmalı, ümumi iş aparmalıyıq".

**Parlament üzvü vurğulayıb ki, bu istiqamətdə mübarizənin torpaqlarımızın işğaldan azad edilməsindən sonra başlanması normaldır:** "Birinci mərhələdə İkinci Qarabağ müharibəsinin qələbə ilə başa çatması, işğalın aradan qaldırılması idi. Ona görə də biz ilk növbədə bütün dünyanın, beynəlxalq qurumların Azərbaycan ərazisi kimi tanıdığı Qarabağdan, Xankəndidən qovulmuş, qaçqın düşmüş azərbaycanlıların öz yurdlarına qayıdışını təmin etməliydik. Ancaq buna rəğmən, dövlətimiz də, xalqımız da Qərbi azərbaycanlıların öz vətənlərinə qayıdışına, bunun reallaşmasına böyük önəm verir. Hazırda bu istiqamətdə ciddi fəaliyyət göstərilir. Real fakt olaraq qeyd edim ki, Qərbi Azərbaycanda doğulmuş mindən çox soydaşımız Birinci və İkinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalıblar. Bu, Qərbi Azərbaycanda, öz yurdlarında anadan olmuş insanların sayıdır. Ancaq nə qədər Qərbi azərbaycanlı var ki, valideynləri indiki Ermənistandan zorla köçürüləndən sonra Azərbaycanda dünyaya gəlib. Əlbəttə, Vətən, torpaq deyəndə, bizim üçün şimal-cənub, yaxud şərq-qərb olmur, hamımız bir can oluruq, bütöv oluruq. Torpaqlarımızın azadlığı uğrunda etnik kimliyindən asılı olmayaraq, hamı həmrəy oldu. Xalqımızın qəhrəman övladları, qızları vuruşdular, canlarından keçdilər. Azərbaycan xalqı olaraq bununla fəxr edirik".

M.İbrahimqızı bildirib ki, Qərbi Azərbaycan İcmasının elan olunmuş Qayıdış Konsepsiyası var: "Burada hansısa savaşdan, silahlı münaqişədən, hərbi fəaliyyətdən söhbət getmir. Konsepsiyanın mahiyyəti Qərbi Azərbaycana sülh yolu ilə, ləyaqətli şəkildə qayıdışın təmin edilməsidir. Qərbi azərbaycanlılar birgə yaşayışın tərəfdarıdır və böyük arzu-istəklə öz dədə-baba yurdlarına geri dönmək istəyirlər. Ermənistan rəhbərliyinin iddia etdiyi kimi heç bir "ərazi iddiası"ndan söhbət gedə bilməz. Beynəlxalq hüquq çərçivəsində Qərbi azərbaycanlıların tarixi yurdlarına qayıdışı təmin olunmalıdır".

**İsmayıl Qocayev**

# Fazil Mustafa xəstəxanadan evə buraxılıb

## Millət vəkili müalicəsini ev şəraitində davam etdirəcək



**Martın 28-də terror hücumuna məruz qalan Böyük Quruluş Partiyasının sədri, Milli Məclisin deputatı Fazil Mustafa müalicə aldığı xəstəxanadan evə buraxılıb.**

Bu barədə "Report"a deputatın köməkçisi Əjdər Əliyev məlumat verib.

O bildirib ki, F.Mustafa müalicəsini ev şəraitində davam etdirəcək. "Qardaşımı artıq evə gətirdik. Özünü yaxşı hiss edir".

Bu sözləri isə Fazil Mustafanın qardaşı İlqar Mustafayev deyib.

O bildirib ki, müayinələr üçün xəstəxanaya gedib-gələcəyik:

"Qardaşımın vəziyyəti yaxşıdır. Evdə həkim nəzarəti yoxdur. Hər şey qaydasındadır".

*Qeyd edək ki, martın 28-də F.Mustafaya qarşı yaşadığı evin qarşısında "Kalaşnikov" avtomat silahından atəş açılaraq terror aktı törədilib. Nəticədə o, bədənin sağ çiyin qurşağını və sağ budun aşağı üçdə birini dəlib keçən güllə yarası alıb. Ona zəruri tibbi xidmətlər göstərilib.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu**



# Yeni "ŞƏBƏKƏ" layihəsi başlayır

## Gənclər təşkilatları vətəndaş cəmiyyətinin aktiv üzvünə çevrilib

**Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası ölkədə fəaliyyət göstərən gənclər təşkilatlarının etibarlı əlaqələndiricisidir. Gənclər təşkilatları Milli Şuraya etibar edir və vətəndaş cəmiyyətinin aktiv üzvü olan gənclərin ictimai fəaliyyətlərinin dəstəklənəcəyinə, vahid koordinasiya və əməkdaşlıq mərkəzi olmaqla Milli Şuranın gənclər təşkilatlarının beynəlxalq inteqrasiyasını təşkil və təmin edəcəyinə inanırlar. AR GTMŞ-nin həyata keçirdiyi layihələrə diqqət edəndə gənclər təşkilatlarının dövlət qayğısı ilə əhatələndiyi əyani görünür.**

Azərbaycan dövlət siyasətinin əsas prioritetlərindən biri də vətəndaş cəmiyyətinin dövlət idarəçiliyində aktiv iştirakının təmin edilməsidir. Bu məqsədlə də vətəndaş cəmiyyəti təmsilçilərinə, vətəndaş cəmiyyətinin inkişafına təkan verəcək layihələrə dövlət dəstəyi təmin edilir. "Gənclər Təşkilatlarının Fəaliyyətlərinin Dəstəklənməsi" - 2.0 proqramı da bu layihələrdən biri idi. Azərbaycan Respublikası Gənclər Fondunun dəstəyi və Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının təşkilatçılığı ilə artıq ikinci dəfədir ki, həyata keçirilən "Gənclər Təşkilatlarının Fəaliyyətlərinin Dəstəklənməsi" - 2.0 proqramı fəaliyyətini yekunlaşdırıb. Proqram çərçivəsində ümumilikdə 2022-2023-cü illəri əhatə etməklə 15 təşkilatın 15 layihəsinə resurs dəstəyi göstərilib və bu layihələr 6 istiqaməti əhatə edib. Gənclər təşkilatları tərəfindən gənclər arasında vətənpərvərlik hisslərinin aşılanması, ətraf mühitin mühafizəsi, yerli və beynəlxalq layihələrin yazılması, idarəedilməsi istiqamətində gənclərin bilik, bacarıq və təcrübələrinin artırılması, gənclər arasında zərərli vərdişlərin aradan qaldırılması, sağlam həyat tərzinin təbliği, gənclərin əmək bazarının tələblərinə uyğun düzgün peşə və ixtisas seçimi, sahibkarlıq haqqında məlumatlılıq səviyyəsinin artırılması və regionlarda fəaliyyət göstərən gənc ictimai liderlərin potensiallarının artırılması, istiqamətləri üzrə həyata keçirilən layihələr çərçivəsində 10 şəhər/rayonda 34 təlim, 17 vörkşop/qrup işi, 15 görüş, müxtəlif istiqamətlər üzrə 4 yarış, 4 intellektual oyun və 1 sərgi keçirilib. Proqramın əsas məqsədi gənclərlə gənclər təşkilatları arasında birgə işin artırılmasında vasitəçilik etmək, gənclərə vətənpərvərlik hisslərini mütəmadi olaraq aşılamaq, gənclər təşkilatlarının fəaliyyətlərini stimullaşdırmaq, həmçinin gənclərlə iş sahəsində araşdırmaların aparılmasına nail olmaqdan ibarət olub. Qeyd edək ki, proqramın yekunu olaraq AR Gənclər Fondunun İcraçı direktorunun müavini Qədir Xəlilov və AR Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin nümayəndəsi Həsən Səmədovun iştirakı ilə bağlanış mərasimi keçirilib. Tədbirdə AR GTMŞ-nin sədri Azər Əliyev açılış nitqi ilə çıxış edərək proqram haqqında ətraflı məlumat verib, həmçinin artıq proqramın yeni adda "ŞƏBƏKƏ" adı ilə fəaliyyət göstərəcəyini elan edib. Proqrama uyğun olaraq tədbirin davamında hesabat videoçarxı təqdim olunub, "ŞƏBƏKƏ" Proqramına yenidən layihələrin qəbulunun yaxın zamanda elan olunacağı bildirilib. Ənənəyə sadiq qalaraq yekunda proqramın qalibi olan təşkilatlar təltif olunub və xatirə fotosu çəkilib. Proqramın əsas məqsədi gənclərlə gənclər təşkilatları arasında birgə işin artırılmasında vasitəçilik etmək, gənclərə vətənpərvərlik hisslərini mütəmadi olaraq aşılamaq, gənclər təşkilatlarının fəaliyyətlərini stimullaşdırmaq, həmçinin gənclərlə iş sahəsində araşdırmaların aparılmasına nail olmaqdan ibarət olub. Qeyd edilib ki, Milli Şura gənclər təşkilatları ilə birlikdə "Gənclər Təşkilatlarının Fəaliyyətlərinin Dəstəklənməsi - 2.0" proqramı çərçivəsində bir sıra uğurlu layihələrə imza atıb. Proqram çərçivəsində 2022-2023-cü illər ərzində Bakı və regionlardan olmaqla 6 istiqamət üzrə 15 təşkilatın 15 layihəsinə resurs dəstəyi göstərilib. İndiyə qədər Bakı, Gəncə, Masallı, Ucar, Astara şəhər və rayonlarında 5 təşkilat tərəfindən icra olunan layihələrə 420-dən çox gənc cəlb olunub. Proqram çərçivəsində fəaliyyətə ilk başlayan təşkilat Azərbaycan Gənc Marketoloq-Reklamçılar İctimai Birliyi idi. Gənclər Təşkilatlarının Resurs Mərkəzində keçirilmiş "Gənclər arasında vətənpərvərlik hissinin təşviqi və düzgün təbliği" layihəsinin əsas məqsədi gənclərə vətənpərvərlik hissinin aşılanması olub. Layihəsinin icrasını yekunlaşdırmış daha bir təşkilat "Gənc Mühasiblər Birliyi" İctimai Birliyi olub. "Gənclərin maliyyə savadlılığına dəstək" adlı layihə zamanı Bakı və Gəncə şəhərlərindən olan gənclərə ağıllı büdcə, layihələrin idarəolunması zamanı büdcə planlaması, gəlir və xərclərin planlaşdırılması, idarə olunması kimi mövzularda təlimlər keçirilib. Azərbaycan Gənc Müəllimlər Assosiasiyası tərəfindən təlimlər və simulyasiyaların dəstəyi ilə koordinator olaraq seçilmiş gənc müəllimlərin şəxsi bacarıqlarının inkişafına dəstək olmaq məqsədilə keçirilən "Koordinator Məktəbi: 21-ci əsr bacarıqlarının formalaşdırılması" layihəsi də fəaliyyətini yekunlaşdırmış layihələr sırasındadır. Layihə zamanı iştirakçılara "Komanda quruculuğu", "Sosial mediada müəllim imici", "Təşkilati mədəniyyət" kimi mövzularda təlimlər keçirilib. "Azərbaycan Demokratik Tələbə Gənclər Təşkilatı" İctimai Birliyi tərəfindən "Gənclər üçün Vətənpərvərlik və Milli Dəyərlər" layihəsi keçirilib. Layihənin əsas məqsədi Azərbaycanın müxtəlif ali və orta ixtisas məktəblərində təhsil alan tələbə - gənclərin Vətənpərvərlik tərbiyəsi, Milli dəyərlər, Dövlətçilik hissləri baxımından bilik, bacarıq və təcrübələrini artırmaqdan ibarət olub. Layihənin vəzifələrinə çatmaq üçün Bakı şəhərinin 8 ali və orta ixtisas məktəbləində təhsil alan tələbələrə təlimlər keçilib. İndiyə qədər Azərbaycan - Fransız Universiteti, Azərbaycan Turizm və Menecment Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı Biznes Universiteti və Bakı Avrasiya Universitetinin tələbələri üçün təlimlər təşkil edilib. "Gənclər təşkilatlarının hüquqi savadlılığının artırılması" da uğurlu layihələr sırasındadır. Layihə çərçivəsində Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin və digər idarəetmə bölmələrinin vəkilləri tərəfindən müxtəlif mövzular üzrə gənclər təşkilatlarının rəhbər və nümayəndələri üçün silsilə təlimlər keçirilib. Təlimlərdə 40 gənclər təşkilatının 100-ə yaxın nümayəndəsi iştirak edib. Layihənin məqsədi gənclər təşkilatlarının hüquqi maariflənməsinə dəstək vermək idir. "Gələcək" İntellektual İnkişafa Yardım İctimai Birliyi tərəfindən həyata keçirilən Gənclər Arasında "ZƏFƏR KUBOKU" çempionatı layihəsi isə hələ davam edən layihələr arasındadır. Layihə çərçivəsində futbol çempionatı, şahmat yarışı, intellektual oyun və atıcılıq üzrə gənclərin iştirakı ilə layihələr keçirilir. Qeyd edilib ki, bu il də 7 gənclər təşkilatı ilə birlikdə Bakı və regionlarda müxtəlif istiqamətli layihələr həyata keçiriləcək.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# "Adətən biz ütülü, sığallı tədbirlərə meyl edirik"

## Varis Yolçuyev: "Bütün mədəni həyat Bakıda cəmləşib. Elə bölgələrimiz var, ədəbiyyatsevərlər həsrətlə gözləyir ki, biz yazıçı, şair ora qonaq gəlsin"

**Yazıçı, Əməkdar jurnalist, Azərbaycan, Rusiya yazıçılar birlikləri, həmçinin Beynəlxalq Yazıçılar Gildiyasının üzvü Varis Yolçuyevin Ədəbiyyat Fondunun baş direktoru təyin edilməsi varissevərləri xeyli sevindirdi. Təbriklər hələ də ard-arda düzülüb. Təbriklər öz yerində, amma vəzifə də kiçik deyil. Məsuliyyəti də yəqin böyükdür. Nə edəcək Varis Ədəbiyyat Fondunda? Sevilə-sevilə oxunan yazıçı - romançıdır, geniş əlaqələri var, ölkə xaricinə çıxa bilir. Sahib olduğu nüfuzdan ədəbiyyatımız üçün istifadə edə biləcəkmi?**

Yeni baş direktorla, hələlik, atüstü söhbət etdik. Geniş söhbətin baş tutacağına da inanırıq. Çünki bir kəsə açıq ziyalıdır.

**- Varis müəllim, ilk növbədə vəzifəyə təyinatınızı təbrik edirik. Uğurlu olsun, yorulmayasınız. Yəqin ki nələrsə planlaşdırırsınız...**

- Bəli, planlar var. Ən birincisi... Bir neçə beynəlxalq festival, müsabiqədə Azərbaycan yazıçılarının, əsasən də gənc yazarların iştirakını - həm onlayn formatda, həm də şəxsən iştiraklarını təmin etmək. Sonra daha bir vacib işimiz mədəniyyət sahəsində fəaliyyət göstərən media quruluşlarına, Azərbaycan Yazıçılar Birliyinin mətbu orqanları da daxil olmaqla dəstək verməkdir. Belə bir layihəmiz var. Vacib tədbirlərimizdən digəri Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubiley tədbirləri çərçivəsində Azərbaycan yazıçılarının təbiət qoynunda plenumunu keçirmək. Bilirsiniz ki, 100 illik yubiley təntənələri çərçivəsində teatr, kino, musiqi sahəsində tədbirlər keçirilir. Ədəbiyyatla bağlı da biz böyük bir tədbir planlaşdırmışıq. Bu, plenum səviyyəsində, qlobal bir tədbir olacaq, geniş, əhatəli...

**- Təbiət qoynunda dediniz, ağlıma ilk Şuşa gəldi...**

- Yox, Şuşada keçirməyi düşünmürük. Şuşa, maşallah, tədbirlərlə doludu; Vaqif Poeziya Günləri keçiriləcək, Xarıbülbül festivalı, başqa mədəniyyət tədbirləri... İstəyirik bölgələrə, kənarlara çıxaq. Bütün mədəni həyat Bakıda cəmləşib. Elə bölgələrimiz var, ədəbiyyatsevərlər həsrətlə gözləyir ki, biz yazıçı, şair ora qonaq gəlsin, bir ədəbi tədbir olsun.

**- Uzaq bölgələri nəzərdə tutursunuz o zaman...**

- Uzaq, yaxın, fərqi yoxdu. Amma Bakıdan çıxaq. Məsələn, Sumqayıtda böyük ədəbiyyat bayramı olsa, necə böyük səs salar. Ya da hansısa başqa bir bölgədə. Gəncə, Şamaxı qədimdən elm, irfan, şeir, sənət yurdu olub. Oralarda ədəbi həyatı canlandırmaq lazımdı. İstəyirəm, ədəbi tədbirlər hər bölgədə, lap ucqar bölgələrdə də keçirilsin. Yazıçı kimi paylaşdığım postlar zamanı müşahidə etmişəm, bölgələrdə ədəbiyyata daha çox maraq var, nəinki paytaxtda. Bir dəfə izləyicilərdən biri mənə yazmışdı ki, niyə Qobustana gəlmirsiniz, qorxursunuz ayağınız palçığa batar?!. Acığa ora getdim. Qobustanın bir kəndi idi...

*"Bir dəfə izləyicilərdən biri mənə yazmışdı ki, niyə Qobustana gəlmirsiniz, qorxursunuz ayağınız palçığa batar?!"*

**- Hansı kənd?**

- Adı yadımda deyil, bağışlasınlar. Amma postuma bunu yazanı xatırlayıram. Təsəvvür edin, elə ucqar yer idi, maşın bizi ora gücə aparıb çıxardı. Böyük bayram oldu oranın əhalisi üçün. Adətən biz ütülü, sığallı tədbirlərə meyl edirik, amma belə yerlərə getmək vacibdir. Ümumiyyətlə, ədəbiyyat adamları bölgələrə daha çox getməlidirlər.

**- Varis müəllim, anlaşıldı ki, böyük tədbirlər keçirməyi planlaşdırmısınız. Bəs maliyyəniz varmı? Bu tədbirlərin keçirilməsi külli miqdarda vəsait lazım olacaq.**

- Fondu formalaşdıracağıq. İndi hələ işimizi qururuq. Mədəniyyət sahəsinə yatırım qoymaq istəyən insanlar var. Qolumuzu çırmayıb işə başlayırıqsa, bu məsələni də həll etməliyik. Dünyanın qabaqcıl mədəniyyət fondlarının iş prinsipi, mexanizmləri ilə tanış olmalıyıq və həmin mexanizmlərin tətbiqinə çalışmalıyıq.

**- Yəni deyirsiz, hazırda Fond boşdu...**

- Bu gün üçün Fondda maliyyə yoxdu.

**- Bəs indiyədək Fond nəylə məşğul olub?**

- Sovet dövrü bu cür fondlar məşhur idi. Amma sonra uzun müddət fəaliyyətsiz qaldılar. Ədəbiyyat Fondu təxminən, 2015-ci ildən heç bir fəaliyyət göstərməyib.

**- O zaman sizin üçün çətin olacaq, Varis müəllim. Sizə uğurlar arzulayırıq. Planlaşdırdığınız işləri inşallah, həyata keçirərsiniz.**

- Çox sağ olun, çalışacağıq.

**Söhbətləşdi: Məlahət Rzayeva**

# Son xəbərdarlıq

## Yolun kənarında avtomobil saxlamaq olmaz




### "Qaydaları pozan əsasən təcrübəli və vəzifəli şəxslərin sürücüləri olur"

**Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi yolun hərəkət hissəsində dayanan avtonəqliyyat vasitələrinin sürücülərinə müraciət edib. Müraciətdə bildirilir: "Aparılan təhlillər deməyə əsas verir ki, xüsusilə yaşayış məntəqələrindən kənarda nəqliyyat vasitələrinin təhlükəsizlik qaydalarına əməl etmədən yolun hərəkət hissəsində dayandırılması ağırlıq dərəcəsi yüksək olan yol qəzalarının baş verməsinə əhəmiyyətli dərəcədə təsir göstərir.**

Nəqliyyat vasitəsi sıradan çıxdıqda və ya dayanmanın qadağan edildiyi yerdə məcburi dayandıqda, habelə sutkanın qaranlıq vaxtı yolun işıqlandırılmayan sahəsində, yaxud məhdudiyyətli görünmə şəraitində dayanarkən və durarkən sürücünün yerinə yetirməli olduğu vəzifələr qanunvericilikdə dəqiq göstərilsə də, təəssüf ki, bəzən sürücülərin bu qaydalara əməl etməməsinin sonu faciə ilə bitən qəzaların baş verməsinə real zəmin yaradır". Məlumatda qeyd olunur ki, hava və ya yol şəraitinin, nəqliyyatın hərəkət şiddətinin, məhdudiyyətli görünmənin, sutkanın işıqlı, yaxud qaranlıq olmasının fərqinə varmadan avtomobilini yolun hərəkət hissəsində dayandıran sürücünün özünün və onun səhlənkarlığı nəticəsində yolun hərəkət hissəsində avtomobildən düşməyə məcbur olan sərnişinlərin hansı təhlükə ilə üz-üzə qalmasını təsəvvür etmək isə yəqin ki, çətin deyil: "Baş Dövlət Yol Polisi İdarəsi yuxarıda göstərilən səbəblərdən dəfələrlə ağır yol-nəqliyyat hadisələrinin baş verdiyini hərəkət iştirakçılarının diqqətinə çatdırır və bir daha sürücülərə müraciət edərək onları, nəqliyyat vasitələrinin yolun hərəkət hissəsində dayanması və durması hallarında qanunla tələb olunan qaydalara əməl etməyə, özlərinin və başqalarının həyat və sağlamlığına etinasız yanaşmamağa çağırır".

**Nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov "Şərq"ə açıqlamasında qeyd etdi ki, nəqliyyat vasitəsinin yolun hərəkət hissəsində, yol kənarında qadağan olunmuş yerdə saxlanılması birbaşa sürücünün məsuliyyətsizliyidir:**

- Sürücü nəqliyyat vasitəsini zərurət olmadan yolun hərəkət hissəsində və ya qadağan olunmuş yerdə saxlayırsa, mütləq cərimələnəcək. Hər bir sürücü bilməlidir ki, bu hərəkətlə nəqliyyat vasitələrinin sərbəst hərəkətinə mane olur, qəza vəziyyəti yaradır, tıxaca səbəb olur. Nəqliyyat vasitəsinin saxlanması zəruri haldan baş veribsə, deyək ki, avtomobildə nasazlıq yaranıb, yanacaq bitib və sair. sürücünün vəzifələri bəllidir. Qəza işıqlarını yandırmalıdır, yol polisinə, evakuator xidmətinə müraciət etməlidir. Sürücülər maariflənməlidir. Avtomobili harda saxlamaq olar, harda olmaz, sürücü bilməlidir. Sizə deyim ki, qaydaları pozan əsasən təcrübəli sürücülər, cəzadan çəkinməyənlər, statusundan sui-istifadə edənlər, vəzifəli şəxslərin sürücüləri olur. Baş Dövlət Yol Polisi İdarəsinin müraciəti ilə iş yekunlaşmayacaq. Sürücülük kurslarında keyfiyyət göstəriciləri artırılmalıdır. İmtahanlar sərtləşdirilməlidir, sürücülük vəsiqəsinin əldə edilməsi indiki kimi asan və tez əlçatan olmamalıdır. Sürücülük vəsiqəsi yol-hərəkət qaydalarını mükəmməl bilənlərə verilməli, parklanma qaydalarını bilməyənlərə sürücülük vəsiqəsi verilməməlidir. Bölgələrdə sürücülük kurslarının ancaq adı var, formal xarakter daşıyır. Bunlar hamısı fundamental problemlərdir və həllini gözləyir.

**Məlahət Rzayeva**

# Bir tələbənin qanunazidd hərəkəti "dəb"ə çevrildi

## Artıq onun "davamçıları" peyda olub



Psixoloq: "Cəmiyyətə mənfi, qanundankənar davranışlar təbliğ edilirsə, kütlə də onu örnək alır"

**Avtomobili geri idarə etmək də dəbə "mindi", eləmi? Günün mövzusu bu olmamalı. Amma, təəssüf Dövlət Neft və Sənaye Universitetinin tələbəsi bir neçə gün öncə avtomobili geriyə idarə etdi, həm də əyini soyunmuş halda. Bir tələbənin qanunazidd hərəkəti "dəb"ə çevrildi.**

Artıq onun "davamçıları" peyda olub. Dünən paytaxtda daha bir "gerisürmə əməliyyatı" gerçəkləşib. VAZ-21099 markalı 24-BD-091 dövlət nömrə nişanlı avtomobilin sürücüsü paytaxtın "20 Yanvar" metro stansiyası istiqamətində, tunelin içərisinə doğru nəqliyyat vasitəsini geriyə sürüb.

Bakı şəhər Dövlət Yol Polisi İdarəsi şəhərin mərkəzində nəqliyyat vasitələrinin axınının əks-istiqamətində, nəqliyyat vasitəsini geriyə idarə edən sürücü ilə bağlı məsələyə münasibət bildirib. İdarənin açıqlamasında qeyd olunur ki, yeni "trend"ə qoşulanlarla bağlı, eləcə də videogörüntüləri yayılan VAZ-21099 markalı avtomobilin sürücüsü ilə bağlı araşdırma aparılır, tədbir görüləcək.

BDYP tədbir görməyində olsun, cəmiyyətdə yaranmış zərəli axın barədə bəs psixoloq nə deyir?

**"Şərq"ə açıqlamasında psixoloq Fərqanə Mehmanqızı qeyd etdi ki, kütlə kimi qəhrəman görürsə, fərdlər də onu qəhrəman sayır:**

- Psixologiyada "həmrəylik psixologiyası" anlayışı var. Birisinin etdiyi hərəkəti, davranışı digəri və digərləri də təkrarlamağa can atır. Ümumiyyətlə, insanın xisləti belədir. Nə zaman ki cəmiyyətdə müsbət davranışlar təbliğ edilir, kütlə də onun arxasınca gedir. Amma cəmiyyətə mənfi, qanundankənar davranışlar təbliğ edilirsə, kütlə də onu örnək alır. İllərdir "qaranlıq dünya", "yeraltı dünya"nın adamları dizilər, filmlər vasitəsilə efirlərdə təbliğ olunur. Bu insanlar qanunu pozmaqla yeni qanunlar yazır, özlərinin tərtib etdiyi qanunlarla hərəkət edirlər. Cəmiyyətimiz onları görür, onlardan "nümunə" götürür. Onlar standartlardan çıxan adamlardır və kütlə onları "qəhrəman" hesab edir. Bu zərərli axının sonu belə də olmalıydı. Əynini soyunmuş halda avtomobilin sükanı arxasına keçib onu geriyə idarə edən o gənc sosial şəbəkələrin, internetin "qəhrəmanı" oldu. Mən rəylərə baxıram, dəhşətə gəlirəm. Əksəriyyət o gənci bəyənir, dəstək verir, tərifləyir. Bu çox təhlükəli haldır. Belə çıxır ki, qanunu pozanlara cəmiyyətdə rəğbət var?! Bir günün içində gənc kütlənin diqqətini çəkdi, tanındı, məşhurlaşdı. Nəyin hesabına? Qanunu pozmaq, qaydaları çeynəmək hesabına. Ona görə də ertəsi gün eyni hərəkəti bir başqası təkrarladı. Qanun və qaydaları, həmçinin cəmiyyətdəki etik davranış qaydalarını pozanlara qarşı ciddi və sərt cəzalar tətbiq edilməlidir ki, digərlərinə görk olsun. Cəmiyyət qanun pozuntusunun yolverilməz olduğunu, hər kəsin təhlükəsizliyinin, rahat yaşayışının təmin edilmiş olduğunu bilsin. Mən şəxsən övladımın həyatı üçün əndişə keçirirəm. Avtomobili arxa-arxaya idarə edən sürücü sabah mənim övladımın həyatına təhlükə yarada bilər. Bu hadisə zamanı insan tələfatı olmadı, qəza baş vermədi. Amma eyni hadisənin sabah qəzasız-bəlasız, faciəsiz bitməyəcəyinə təminat yoxdur. Hər cür qəza da baş verə bilər, piyadaların, digər sürücülərin həyatı təhlükə altına düşər. Ona görə də cəzalar sərt olmalıdır.

***"İllərdir "qaranlıq dünya", "yeraltı dünya"nın adamları dizilər, filmlər vasitəsilə efirlərdə təbliğ olunur"***

*F.Mehmanqızı tələbənin guya psixoloji problemlərinin olması və onun xəstəxanaya yerləşdirilməsinin aldadıcı və cəzadan yayındırılmaq məqsədi daşıdığını bildirdi:*

- O gəncin heç bir psixoloji problemi yoxdur. Psixoloji problemli adam avtomobili arxa-arxaya idarə edə bilməz. Ümumiyyətlə, avtomobil idarə etmək asan iş deyil. İllərin sürücüləri avtomobili park edəndə yüz-ölçüb biçir. O ki ola arxa-arxaya, həm də uzun müddət idarə etmək. Sürücü yolu səhv gedə bilər, səhv getdiyini biləndə avtomobilin arxa işıqlarını təhlükəsizlik siqnalı şəklində yandırmaqla xəbərdarlıq edərək minik vasitəsini arxa-arxaya sürə bilər ki, düzgün istiqamətə yönələnsin, digər sürücülər üçün təhlükə yaratmasın. Avtomobil idarə etməyi az-çox bilirik. O gənc isə avtomobili bilərəkdən, nümayişkaranə şəkildə axra-arxaya sürüb, özünü "super-qəhrəman" kimi göstərmək, "məşhurlaşmaq" istəyib. İstəyinə də nail olub. Bir insan kimsədən, o cümlədən də qanundan, cəzadan çəkinməyərək avtomobili qaydalara zidd şəkildə idarə edir və cəmiyyətə mənfi tendensiya yaradırsa, o, təhlükəli biridir, sabah başqa qanunazidd hərəkət də edəcək. Bu adama elə bir cəza verilməlidir ki, həyatının şokunu yaşasın. O və onun kimilər ali məktəbdən uzaqlaşdırılmalıdır. İnsan savadlı ola bilər, amma əgər mənəviyyatsızdırsa, onun savadı heç bir əhəmiyyət daşımır. Mənəviyyatsız savadlı adamlar cəmiyyət üçün böyük təhlükədir.

**F.Mehmanqızı məlum hadisədən sonra gəncin cəzalandırılmaq əvəzinə haqqında müsbət rəy formalaşdırılmasına göstərilən cəhdləri tənqid etdi:**

- Təhsil aldığı ali məktəb bu hadisəni qınamaq yerinə, "yaxşı tələbə" fikri formalaşdırır. Deməli, bu gənc cəzalanmayacağına da əmin olub. Psixoloji problem adı altında cəzadan yayınma baş verir. Psixoloji problemi olan şəxsə sürücülük vəsiqəsi necə verilib? Cəza yoxdur, ictimai qınaq da yoxdur. "Əla!". Davamı gələcək o zaman. Cəzalar ona görə mövcuddur ki, insanlar cəmiyyətdə necə davranılmalı olduğunu bilsinlər. Hər bir insan bilməlidir ki, hansı cəmiyyətdə yaşayır və bu cəmiyyətin qaydaları hansılardır. Bunu bilməyən, valideyni tərəfindən öyrədilməyən, tərbiyə almayan uşaq sabah istənilən qanunsuzluğu edə bilər.

**Məlahət Rzayeva**

## Bakcell şirkətinin Direktorlar Şurasına yeni təyinat



**Bakcell şirkəti Salvador Anqladanınşirkətin Direktorlar Şurasına üzv təyin olunmasını elan edir.**

Salvador Anqlada telekommunikasiya və İT sahələrində 27 ildən çox iş təcrübəsinə malikdir. O, peşəkar karyerası ərzində Avropada "Telefonica", "O2" və "Dell" şirkətlərində müxtəlif rəhbər vəzifələrdə çalışıb. "Bakcell"in Direktorlar Şurasına təyinatından əvvəl o, 9 il BƏƏ-nin "e&" şirkətlər qrupunun (əvvəlki Etisalat) Biznes üzrə baş direktoru, sonra isə qrupun müəssisə və hökumət qurumlarına rəqəmsal transformasiya xidməti göstərən "e& enterprise" adlı törəmə şirkətinin baş icraçı direktoru vəzifələrini icra edib.

Cənab Anqlada İspaniyanın "Instituto de Empresa"universitetində icraçı MBA (executive MBA) və "Madrid UPM" universitetində sənaye mühəndisliyi üzrə magistr dərəcəsi alıb. O, həmçininSilikon vadisinin "Singularity" Universitetində icraçı (executive) proqramı və IESE Business Məktəbində PDG proqramını uğurla bitirib.

"Bakcell şirkəti davamlı olaraq öz fəaliyyət sahəsində ən üstün rəqəmsal biznes qurmağa çalışır. Buna görə də biz asan olmayan buişə öz töhfəsini verə biləcək yüksək təcrübəli insanları şirkətimizə cəlb edirik. Biz Salvador Anqladanın "Bakcell"in Direktorlar Şurasının yeni üzvü təyin olunmasından məmnunuq. Azərbaycanda və daha geniş regionda innovasiyaların tətbiqi və rəqəmsal transformasiyanın həyata keçirilməsinə yönəlmiş fəaliyyətimizi davam etdirdiyimiz üçün onun telekommunikasiya və İT sənayesindəki böyük təcrübəsi bizim işimizə böyük dəyər qatacaq", deyə Bakcell şirkətinin Direktorlar Şurasının sədri və "NEQSOL Holding"in telekom rəhbəri Vasil Latsaniç bildirib.

"NEQSOL Holding"in tərkibinə daxil olan Bakcell Azərbaycanda ən son VoLTE və eSIM texnologiyalarını tətbiq edən ilk mobil operatordur. 2023-cü ilin əvvəlində şirkət Bakının seçilmiş ərazilərində 5G-nin sınaq tətbiqini elan edib. Bakcell şəbəkəsi Ookla® tərəfindən "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" kimi tanınıb.

NEQSOL Holding doqquz ölkədə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahəsində fəaliyyət göstərən beynəlxalq şirkətlər qrupudur.

## "Halal" kolbasaların tərkibi məlum deyil

Razi Nurullayev: "Cəza varmı, açıqlama varmı, hansı tədbirlər görülür və görüləcək, bilmək istəyirik"



**"Qidanın keyfiyyətsiz və tərkibinin təhlükəli olması vətəndaşların həyatını zəhərləyir və onlar olan-qalanlarını da keyfiyyətli, keyfiyyətsiz apteklərdə xərcləməli olurlar". Bunu Parlamentin dünənki iclasında millət vəkili Razi Nurullayev deyib.**

Deputat kolbasa məhsullarında olan neqativ hallara toxunub: "Bu yaxınlarda Qida Təhlükəsizliyi üzrə Dövlət Agentliyi məlumat yaydı ki, "halal" əmtəə nişanı adı altında kolbasa məhsulları istehsal edən şirkətlərin kolbasalarının bəzisində heç ətdən əsər-əlamət yoxdur. O şirkətlərin də adları hamımıza məlumdur. Bu, nə biabırçılıqdır törədirlər? Ölkə dərəbəylikdirmi, yoxsa özbaşınalıqdırmı? Ət adı altında onlar nə satırlar? Belə də zülm, günah, imansızlıq olarmı? İnsanlar "halal" deyib kolbasa alır və məlum olur ki, o, nəinki halal deyil, heç tərkibi məlum deyil. Bu, həm də pis əməldir. Hərdən adamın ayda-ildə bir dəfə ürəyi istəyir ki, kolbasa, sosiska yesin. Daha onlara yaxın düşmək olarmı? Cəza varmı, açıqlama varmı, hansı tədbirlər görülür və görüləcək, bilmək istəyirik. Mən özüm də bu barədə ayrıca bir araşdırma apararam. Çünki bu cür saxtakarlıq və imansızlıq ölkəmizin adına ləkə gətirir, düşmən ölkələr bundan bizim dövlətimizə qarşı istifadə edir. Kim ki, məşğul olduğu sahədə dövlət adına ləkə və utanc gətirirsə, mütləq cəzasının da olacağını görməlidir".

**İsmayıl**

## "Nadiri Atlantik okeanında 600 avro cərimələyiblər"



**Müğənni Günel Ələkbərova bir vaxtlar yayımlanan "Ekstrim" realiti-şousu ilə bağlı etiraflar edib.**

Bu haqda sənətçi "Zaurla Günaydın"da danışıb. O bildirib ki, layihə üçün 1,5 milyon dollar xərclənib.

Müğənni Nadir Qafarzadə isə "Yayımlandı və uğursuz oldu" sözlərini əlavə edib.

Günel yarışma zamanı Namibiyada Qafarzadənin 600 avro cərimələndiyini açıqlayıb:

"Atlantik okenanından gedib meduza yığıb gətirmişdi ki, yeyək. Bir də görürük ki, vedrə ilə gəlir. Axşam olanda okeanın suyu çəkilir, bu da yığıb hamısını. Dedilər, gəl bura və cərimələdilər".

*Qeyd edək ki, 2011-ci ildə çəkilən şou "Survivor" realiti-şousunun bənzəri idi. "Space TV"də efirə gedən layihədə Xalq artisti Aygün Kazımova, müğənnilər Nadir Qafarzadə, Günel Ələkbərova, Rüfət Axundov, Nurlan Əzizbəyli və başqaları yer almışdılar.*

## Bu da "Toppuş bacı"nın qızı...



**Mərhum Əməkdar artist Tünzalə Əliyevanın qızı Zəhranın yeni görüntüsü yayılıb.**

"Şərq" xəbər verir ki, bu barədə aparıcı və aktrisa Xuraman Əlizadə paylaşım edib.

O, oğlu Əli ilə Zəhranın fotosunu izləyiciləri ilə bölüşüb.

**Samirə**

# Aparıcı ilə Əməkdar artist arasında qalmaqal yaşandı

## Rövşanə Ağasəfqızı İlkin Əhmədovu efirə buraxmadı

**Aparıcı Rövşanə Ağasəfqızı və Əməkdar artist İlkin Əhmədov arasında qalmaqal yaşanıb. "Şərq" xəbər verir ki, buna səbəb sənətçinin "Space səhər" verilişinə gecikməyi olub. Proqramın bitməyinə 10 dəqiqə qalmış gələn Əhmədovu Rövşanə efirə buraxmayıb:**



***İlkin: "Xalqa hörmətsizlik etdiyimi desən, kim olursa, olsun, yaxasından tutaram, deyərəm məhkəməyə gəl..."***

"İlkin Əhmədovu dəvət etmişik, Respublikanın Əməkdar artistidir. Canlı efirə gəlirsən, biz səhər 6-dan buradayıq. Haradasan, İlkin Əhmədov? Biz sənə hörmət etmişik, əziz bilmişik, anonslar paylaşılıb, fəxri ad daşıyırsan. Vaxtında efirə gəlmək lazımdır. Gələ bilmirdinsə, deyərdin, vaxtım yoxdur. Nə qədər müğənninin efirə çıxmaq üçün ürəyi gedir. Canla-başla gəlib əyləşəcəkdilər. Bu qədər tıxac olar?

Biz bütün komandamız buradayıq. Bu, hörmətsizlikdir. Bizdən özünə qarşı nə vaxt hörmətsizlik görmüsən? Nə haqla efirimizi boş qoyursan? Biz sənə bu haqqı verməmişik.

Gələ bilməsən, deyərdin ki, yatıb, yeyib qalacam. Əməkdar artistsən, bu ölkənin təmsilçisisən, xaricə gedib, ölkəni təmsil edirsən. Biz də səni dəvət etmişik, amma bizə və xalqına qarşı hörmətsizlik yaradırsan. Efirin bitməyinə az qalıb. Gəlsən də, qəbul etməyəcəyəm.

Çox əsəb yaşadıq, artıq 10 dəqiqəyə efir bitir. Sənin ucbatından verilişimiz altüst oldu. Əməkdar artistdi, biz hörmətsizlik göstərməmişik, onu hər zaman sevgi ilə qarşılamışıq. Biz onun üçün vaxt ayırmışıq, amma gəlmir".

**Əməkdar artist İlkin Əhmədov aparıcı Rövşanə Ağasəfqızının ünvanına səsləndirdiyi fikirlərə münasibət bildirib:** "Aqressiv xanımdır. Efirimizdə aqressiyası olmayan, sakit veriliş aparanlar da var. Nə edək, mənə də belə veriliş qisməti oldu. Sadəcə orada bəzi ifadələr səsləndirir, ona görə məsuliyyətə cəlb etmək olar. Gec gəlməyimlə bağlı dediklərinin eybi olmaz. Amma xalqın adından danışıb hörmətsizlik etdiyimi deməsi... Bu kəlmənin altında böyük məna var".

**İlkin Əhmədov sözlərinə davam edir:**

"Onun arxasınca gedib, üstünə düşərəm, çox pis nəticə verər. Bu da lazım deyil, Azərbaycan xanımıdır, bizim də böyük saygımız, hörmətimiz var. Ona görə də mənə ciddi narahatlıq, aqressiya göstərəcək amil görmürəm. Dərnəgül körpüsündə tıxaca düşdüm, gecikdim. Qəbələ dairəsinə qədər tıxac idi. Saat 9-a, 10-a işləmiş çatdım. Hətta bir-iki dəfə də manevr etdim, dedim ki, yol polisi saxlayacaq. Ciddi qayda pozuntusu olmayıb. Kimsə mənlə aqressiya ilə danışsın, desin ki, İlkin mənə salam vermədi və sairə, üzr istəyərəm. Amma xalqa hörmətsizlik etdiyimi desən, kim olursa, olsun, yaxasından tutaram, deyərəm məhkəməyə gəl. Xalqa hörmətsizlik edən ancaq düşmən ola bilər. Efirin bitməyinə 10 dəqiqə qalmış çatdım. Söhbət etdik, orada da düşüb. Dedi, gecikmisiz, mən də bir söz demədən, sakit çıxdım. Mənə demişdilər, saat 9-da gəl, mən də 9:25-də çatdım. 25 dəqiqə gecikdim, elə sənətçilər olub ki, heç gəlməyib. Amma mən ciddi, qlobal problem ola bilər ki, efirə getməyim.

Əsəblə, stresslə çatmışam efirə. Gəlməsəydim, ora girməsəydim, başqa məsələ. Hörmətsizlik olardı. Xalqın adından danışmaq cinayətdir. Yalnız Prezident xalqın adından danışa bilər. Başqa kiminsə ixtiyarı yoxdur".

**Samirə Ərəblinskaya**


**Elan**

Yasamal rayonu, F.İbrahimbəyov 12, məhəllə 458-də Şahin MTK tərəfindən inşa olunan hündürmərtəbəli binanın birinci mərtəbəsində 169 m.kv qeyri-yaşayış sahəsi alan Quliyev Fuad Yusif oğlunun adına Şahin MTK tərəfindən verilmiş Maliyyə arayışı və Alqı-satqı müqaviləsi itdiyi üçün etibarsız sayılır.



Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA40060380300225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 941



## "Porsche" uddu

Amma ərinə deməd

**4 uşaq nənəsi olan 39 yaşlı Conne McGuigan Omaze "Million Pound House" "Porsche" tirajında 100.000 funt sterlinqlik maşın qazanıb. Lakin o, köhnə avtomobilini saxlamaq qərarına gəlib.**

Hadisə Şotlandiyada qeydə alınıb.

Qadın və əri ipotekanı ödəmək üçün idman avtomobilini satmağı, qalanını isə 6 övladı və 4 nəvəsinə xərcləməyi planlaşdırır.

McGuigan deyib ki, o, köhnə sevimli Corsa ilə ayrılmaq istəmir. Onun sözlərinə görə, avtomobil ustası olan əri İan "Porsche" qazandığını deyəndə, əvvəlcə ona inanmayıb. (publika)

"Mən işdən yenicə evə gəldim və Omazedən bir e-poçt gördüm ki, nəsə qazanmışam. Bunun həqiqət ola bilməyəcək qədər əla bir şey olduğunu düşündüm, ona görə də ərimə evə gələndə bu barədə heç danışmadım. Axşam saatlarında məktubu yenidən yoxlamaq qərarına gəldim və kodumun uyğun gəldiyini görəndə şoka düşdüm - və həqiqətən "Porsche" qazandım!" - qadın deyib.

## Delfin havada 6 dövrə vurdu



**Delfinlərin kütləsi ağır olsa da, çox cəld heyvanlardır.**

Lent.az bildirir ki, yetkin delfin sudan 7 metrədək yüksəyə atıla bilir. Bu dəfə isə bir delfinin atılaraq havada 6 dəfə dövrə vurması kameralara düşüb.

## Şakira jurnalistlərə səsləndi

### "Bunu məşhur kimi deyil, bir ana kimi edirəm"



**Məşhur müğənni Şakira oğulları Milan və Saşa ilə bağlı müraciət edib.**

**Axşam.az xəbər verir ki, ifaçı paparatsilər və media orqanlarından onları addım başı izləməməyi xahiş edib.**

**"Bir ictimai xadim kimi həyatımda dəyişikliklərin baş verdiyi bu vaxtda mətbuatda mənim və ailəmlə bağlı xəbərlərə daimi marağın olması başa düşüləndir. Bununla belə, övladlarım - Milan və Saşa Barselonada paparatsilər, müxtəlif media orqanlarının işçiləri tərəfindən davamlı olaraq təqiblərə məruz qaldıqları çox çətin il yaşadılar.**

**İndi onların həyatında yeni mərhələ başlayır. Oğullarımın adından xahiş edirəm ki, onların şəxsi toxunulmazlıq hüququna hörmət edilsin. Xahiş edirəm ki, Barselonada hər gün baş verdiyi kimi, görüntülər əldə etmək üçün onları məktəbin çıxışında və ya girişində izləməkdən, evimizin qapısında gözləməkdən və ya dərsdənkənar fəaliyyətlərində izləməkdən çəkinin. Bu müraciətimi məşhur kimi deyil, bir ana kimi edirəm" deyə, o paylaşımında yazıb.**

***Qeyd edək ki, Şakira xəyanətə uğradıqdan sonra eks-sevgilisi, "Barselona"nın keçmiş müdafiəçisi Jerar Pikedən ayrılıb. İkili 11 il münasibətdə olub və iki övladları var. Hazırda Pikenin sevgilisi Klara Çianın hamilə olduğu deyilir.***

## Bu il qar ehtiyatı ötən il ilə müqayisədə az olub



**Ölkə ərazisində qar-su ehtiyatlarının müəyyənləşdirilməsi və aprel, may, iyun aylarında (yaz-yay gursululuq dövründə) çaylarda gözlənilən sululuğun proqnozlaşdırılması məqsədilə Milli Hidrometeorologiya Xidmətinin və Naxçıvan MR Hidrometeorologiya İdarəsinin mütəxəssis-hidroloqları tərəfindən ölkənin yüksək dağlıq ərazilərində aparılan qarölçmə işləri başa çatıb.**

**Xidmətin Hidrologiya Mərkəzinin direktoru Trend-ə Asif Verdiyev bildirib ki, Böyük və Kiçik Qafqazın dağlıq ərazilərində 36 marşrut üzrə aparılan qarölçmələr zamanı hər bir marşrut üzrə qar örtüyünün hündürlüyü, çəkisi təyin edildikdən sonra qarın sıxlığı və sululuğu müəyyən olunub. Qarölçmə işlərinin nəticələrinə əsasən bu il qar ehtiyatı normadan və ötən il ilə müqayisədə az olub. A.Verdiyevin sözlərinə görə, aparılan kompleks təhlillərə, o cümlədən qarda olan sululuğa və yaz dövründə gözlənilən hidrometeoroloji şəraitə əsasən bu il yaz-yay gursululuq dövründə (aprel-iyun) çaylarda sululuğun normadan aşağı olacağı gözlənilir.**

## 48 yaşlı aktrisanın əkizləri dünyaya gəlib



**Amerikalı aktrisa Hilari Suonk ilk dəfə ana olub.**

**Axşam.az xəbər verir ki, 48 yaşlı aktrisanın əkizləri dünyaya gəlib.**

**Sosial şəbəkədə övladlarıyla foto paylaşnan sənətçi "Bu, asan deyildi. Amma oğlan və qız buna dəyərdi" sözlərini yazıb.**

***Qeyd edək ki, Hilari 2018-ci ildə prodüser və iş adamı Filip Şnayderlə ailə qurub.***



# Bin Ladenin evindən çıxan sirlər

## 228 səhifəlik gündəlikdə 1 nömrəli terrorçu nələr yazıb?



**Əfqanıstan, İraq, Orta Şərqdə 2001-ci ilin 11 sentyabrından tətbiq olunan ABŞ hərbi-siyasi gücü bu gün də davam edir. 11 sentyabr terror aktında suçlu bilinən və dünyanın 1 nömrəli terrorçusu elan edilən "Əl-Qaidə" lideri Üsamə bin Ladensə 10 il sonra məhv edildi.**

Bu hadisə Pakistanın paytaxtı İslamabadın şimalındakı Abbatabad bölgəsində baş verdi. ABŞ kəşfiyyatı Bin Ladenin buradakı evlərdən birində gizləndiyini təsbit etmişdi. Hadisələrin sonrakı gedişatı məlumdur. Binaya xüsusi təyinatlı qüvvələr cəlb edildi, havadan dəstək verilməklə bina dağıdıldı, Üsamə bin Laden məhv edildi. Maraqlı olan həm də evə hücum zamanı ələ keçirilən əşyalar idi. Onlar arasında Bin Ladenin gündəliyi də vardı. 228 səhifəlik gündəlikdə 1 nömrəli terrorçu nələr yazıb? "Şərq" "Milliyet.com"a istinadən gündəlik yazılarları təqdim edir. Bin Ladenin qaldığı evdə internet və telefon əlaqəsinin olmadığı müəyyənləşib. Məlum olub ki, Bin Laden ancaq xüsusi kuryerlər vasitəsilə dəstə üzvləri ilə əlaqə saxlayırmış. Kuryerlər şəhər daxilində müxtəlif internet klublara gedərək Bin Ladenin yazılı əmrlərini dəstə üzvlərinə çatdırırmış. Əşyalar arasında terror qruplaşmasına verilən əmrlər, fətvaların yazıldığı vərəqələr olub. Ümumilikdə 470 yazılı sənəd əldə edilib, onlar arasında Bin Ladenin 228 səhifəlik gündəliyi. Bin Laden gündəliyində "Ərəb baharı" adlanan dövr haqqında "bu xaos və liderlərin yoxluğu "Əl-Qaidə"nin düşüncə və fikirlərini yaymaq üçün ən münbit şəraitdir", yazıb. Bin Ladenin fikirlərini və baş verənlər haqqında düşüncələrini gündəliyə onun dilindən öz qızının yazdığı da ehtimal edilir. Ələ keçirilən





əşyalar arasında Bin Ladenin ən çox sevdiyi oğlu Həmzənin "Əl-Qaidə" üzvü olan Əbu Məhəmmədin qızıyla İraqda keçirilən toy mərasiminin videosu da olub. Qeyd edilir ki, Həmzə bin Laden 2019-cu ildə öldürülüb. Tapılan əşyalar Bin Ladenin kompüter oyunları aludəçisi olduğunu da sübut edib. "Əl-Qaidə" lideri şəxsi kompüterinə bir çox oyunlar, hətta kiçik yaşlı övladlarının izləməsi üçün cizgi filmləri də yükləyibmiş.

**Məlahət**



# Canavar hücum etdi

## 4 nəfər ağır vəziyyətdədir

**Canavar yaşayış məskəninə hücum edib, sakinlərdən 4 nəfəri yaralayıb. Bir nəfərin vəziyyətinin ağır olduğu bildirilir. Hadisə Türkiyənin Ərzurum bölgəsində baş verib.**

**"Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, Ərzurumun Tortum əyalətinin çöllük Kirəcli məhəlləsinin sakinləri canavarın hücumuna məruz qalıb. Məhəllədki evlərdən birinin qoyun-keçi saxlanan damına heyvanları yemləmək üçün daxil olan 6 övlad anası Dəstəgül Uğurlu qapıda canavarla üz-üzə gəlib.**

Canavar qadına hücum çəkib, çənəsindən yaralayıb. Daha sonra məhəllədə daha 2 nəfəri yaralayıb. Məhəllə sakinləri itləriylə qurdun izinə düşüblər. Və onu bir mağarada yaxalayıb, ov tüfəngi ilə vurublar. Yaralılardan 3-ü müalicə aldıqdan sonra evə buraxılıb. Dəstəgül Uğurun yarası ağır olduğu üçün Ərzurum mərkəzi xəstəxanasına gətirilib. Burada çənə cərrahiyyəsi klinikasında müalicəsi davam edir. Yaralını müayinə edən həkim canavarın qadının çənə sümüyü və yumşaq toxumalara ciddi zərər yetirdiyini bildirib. Öldürülmüş canavarın cəsədi laboratoriyaya təhvil verilib. Aparılan analizlər qurdun quduz olduğunu aşkarlayıb. Bu səbəbdən də yaralılara həm də quduzluğa qarşı müalicə təyin edilib. Məhəlləyə giriş-çıxış qadağan edilib.





**Məlahət**

## Aeroportda bağlamadan insan kəlləsi çıxdı



**Rusiya paytaxtı Moskvanın Vnukovo hava limanında skanerlə yoxlamalar zamanı bağlamalardan birinin içində insan kəlləsinin skeleti aşkarlanıb.**

Məlum olub ki, bağlama ABŞ-yə göndərilirmiş. Lakin gömrük işçiləri bunun qarşısını alıblar.

Oxu.az xəbər verir ki, hadisə yerinə gələn ekspertlər müəyyən ediblər ki, qalıqlar təxminən 10 il əvvəl dünyasını dəyişmiş insana aiddir.

Bağlamanı Moskva sakini olan İrina Lapina adlı qadın Çikaqo sakini Tom Bubana göndərirmiş. Belə bir insanın həqiqətən orada yaşadığı öyrənilib. İş adamı olan Bubanın əvvəllər öz tikinti şirkəti olub və o, eyni zamanda böyük bank şirkəti olan "Capital One"da analitik kimi işləyib. Hazırda kəllənin həqiqətən ona göndərilib-göndərilmədiyi araşdırılır. Dəhşətli paket Rusiya polisi tərəfindən araşdırılır. Ölən şəxsin kimliyi müəyyənləşdirilir.

## Almaniyada 3,4 milyon insan heç vaxt internetdən istifadə etməyib



**Almaniyada 16-74 yaş arası insanların demək olar ki, 6 faizi internetdən istifadə etmir. Bu isə 3,4 milyon insan deməkdir.**

APA "Der Spiegel"ə istinadən xəbər verir ki, bu barədə Federal Statistika İdarəsi ötən il kommunikasiya sektorunda istifadəçilərin davranışı ilə bağlı sorğulara istinad edərək məlumat yayıb.

Müvafiq olaraq, "oflayn" olanların nisbəti ən çox 65-74 yaşlılar qrupunda olub. Federal İdarənin məlumatına görə, onların altıda biri və ya 17 faizi heç vaxt internetdən istifadə etməyib. Bunun əksinə olaraq, 45 yaşdan aşağı olanlar üçün bu nisbət 2 faizdən az olub.

Ümumilikdə, Almaniya internetdən istifadə etməyənlərin sayına görə Aİ ortalamasından bir qədər aşağıdadır. Bununla belə, Aİ-yə üzv dövlətlər arasında böyük fərqlər var. Belə ki, Yunanıstan və Portuqaliyada bu rəqəm 14 faiz olduğu halda, İsveçdə yalnız 1 faiz "oflayn"dır.

Federal İdarənin BMT-nin Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) hesablamalarına istinadən verdiyi məlumata görə, 2022-ci ildə dünya əhalisinin təxminən üçdə biri internetdən məhrumdur. Bu, isə onlayn olmayan 2,7 milyard insana bərabərdir.